QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır



“SƏS” qəzeti mənim üçün ən aziz qəzetdir

№ 042 (4784) **5 mart** 2015-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan Bolqarıstan üçün çox etibarlı dost və tərəfdaşdır

*İlham Əliyev: “Biz yaxşı dostlarıq və strateji tərəfdaşlığımızı gücləndirəcəyik”*



Səh 2

**Əli Həsənov: “Bəzi dairələr I Avropa Oyunlarını Azərbaycana qarşı aparılan “qara piar”ın baş mövzusuna çevirməyə çalışırlar”** 3

**“Rusiya-Azərbaycan münasibətlərinin iqtisadi bazisi böhranlı halların mənfi təsirinə müqavimət göstərməyə imkan verir”** 8

**ABŞ Prezidenti Rusiyaya tətbiq edilən sanksiyaların müddətini daha bir il uzadıb** 9

**Azərbaycanda martın 29-da yay vaxtına keçiləcək** 9

## Azərbaycan Müdafiə Nazirliyindən erməni valideynlərə müraciət: övladlarınızı mənasız xəyallar uğrunda ölümə yollamayın

12

Ermənistanın müdafiə naziri Seyran Ohanyanın bəyanatı vicdanını və şərəfini günahsız dinc insanların qanı ilə ləkələmiş cəlladın növbəti uydurmasıdır. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xocalıda və Azərbaycanın işğal olunmuş digər ərazilərində mülki əhaliyə, o cümlədən körpələrə, qadınlara və ahıllara divan tutan bir şəxsin öz torpaqlarının işğaldan azad edilməsi uğrunda döyüşən Azərbaycan xalqını təhqir edərək insaniyyətdən danışmağa mənəvi haqqı və hüququ yoxdur. Yüzlərlə uşağı qanına qəltan edən bu cani öz övladlarının və Azərbaycanın işğal olunmuş ərazilərində nahaq yerə məhv edilən, yaralanaraq şikəst olan ermənilərin uşaqlarının və yaxınlarının gözünə baxa bilirsə, bu onun psixi cəhətdən anormal olduğunu göstərir...

5

**“San-Marino Notizie” portalı ilk Avropa Oyunlarından yazır**



3

**“Sonsuz dəhliz” “CNN Türk” kanalında**




16

**Azərbaycan gimnastları qızıl medala sahib çıxdılar**



# Azərbaycan Bolqarıstan üçün çox etibarlı dost və tərəfdaşdır

## *İlham Əliyev: "Biz yaxşı dostlarıq və strateji tərəfdaşlığımızı gücləndirəcəyik"*

Martın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sofiyanın Aleksandr Nevski meydanında naməlum əsgərin məzarını ziyarət edib. Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyev naməlum əsgərin məzarı önünə əklil qoydu.



Martın 4-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliyev ilə təkbətək görüşü olub. Dövlət başçıları əvvəlcə rəsmi foto çəkdirdilər. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, humanitar, mədəni və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi, yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı. Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfərinin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi işinə böyük töhfə verəcəyi qeyd olundu. Əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivin və yaxşı imkanların olduğu bildirildi. Söhbət zamanı ikitərəfli münasibətlər və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstan Prezidenti Rosen Plevneliyev ilə geniş tərkibdə görüşü olub.



**Prezident Rosen Plevneliyev:**

- Cənab Prezident. Azərbaycan hökumətinin üzvləri. Sizi Bolqarıstanın milli bayramından bir gün sonra, dostluq rəmzlərimizi paylaşdığımız bir vaxtda qarşılamaq mənim üçün böyük şərəfdir. Ölkələrimiz arasında əsrlər boyu mövcud olan dostluğun davamı kimi bu gün biz Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalayacağıq. Bolqar xalqı Sizin səfərinizdən məmnunluq duyur, çünki Azərbaycan bizim üçün çox yaxşı, etibarlı dost və tərəfdaşdır. Strateji tərəfdaşlıq çərçivəsində bütün sahələrdə əməkdaşlıq üçün yeni üfüqlər açılır. Mən bu uğurdan çox qürur duyuram və bundan sonra bu nailiyyətin təfərrüatları üzərində çalışacaq hər kəsə uğurlar arzulamaq istəyirəm. Bir daha Bolqarıstana xoş gəlmisiniz.

**Azərbaycan Prezidenti İlham Əliyev:**

- Cənab Prezident, təşəkkür edirəm. Sizin gözəl ölkənizə yenidən səfər etməyimə çox şadam. Fürsətdən istifadə edərək Sizi və bütün bolqar xalqını dünən qeyd etdiyiniz milli bayramınız münasibətilə təbrik etmək istərdim. Mənə hədiyyə etdiyiniz bu gözəl yaz rəmzinə görə təşəkkür edirəm. Mən bunu həm də dostluq rəmzi hesab edirəm. Sizin dediyiniz kimi, Bolqarıstanda bu rəmzləri ailə üzvlərinə və dostlara hədiyyə edirlər. Biz yaxşı dostlarıq və strateji tərəfdaşlığımızı gücləndirəcəyik. Görüşdə Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu qeyd edildi. Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı, investisiya qoyuluşu, energetika, TAP və TANAP strateji layihələri, informasiya-kommunikasiya texnologiyaları, əczaçılıq, ərzaq məhsulları, turizm, infrastruktur və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliyev "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə"ni imzaladılar.

Martın 4-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə təkbətək görüşü olub. Prezident İlham Əliyev və Baş nazir Boyko Borisov əvvəlcə rəsmi foto çəkdirdilər. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Əlaqələrimizin strateji əməkdaşlıq səviyyəsinə yüksəlməsinin önəmi vurğulandı. İqtisadi əlaqələrimizin genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu qeyd edildi.

Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif sahələrinə dair ətraflı fikir mübadiləsi aparıldı. Dünən Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə geniş tərkibdə görüşü olub. Görüşdə siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu bildirildi. Azərbaycan Prezidentinin Bolqarıstana rəsmi səfərinin iqtisadi əməkdaşlığın genişləndirilməsi perspektivlərinin müzakirə edilməsi üçün önəmli olduğu vurğulandı. Ölkələrimizin energetika sahəsində, həmçinin "Cənub" qaz dəhlizi layihəsində uğurlu əməkdaşlığının önəmi qeyd olundu. Azərbaycan ilə Bolqarıstan arasında dostluq münasibətlərinin əlaqələrimizin daha da genişləndirilməsinə təkan verdiyi bildirildi. Söhbət zamanı, həmçinin infrastruktur, sənaye, nəqliyyat, maliyyə, turizm, idman, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Sofiyada Prezident İlham Əliyevin və Baş nazir Boyko Borisovun geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Bolqarıstan sənədləri imzalanıb. "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında elektron rabitə, informasiya texnologiyaları və elektron idarəçilik sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov və Bolqarıstanın nəqliyyat, informasiya texnologiyaları və rabitə naziri İvaylo Moskovski imzaladılar.

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Bolqarıstan Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlığın genişləndirilməsinə dair Protokol"u Azərbaycanın Bolqarıstandakı səfiri Emil Kərimov və Bolqarıstanın turizm nazirinin müavini xanım İrena Georgiyeva imzaladılar.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovun mətbuat konfransı olub.

### *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bir qrup əməkdaşının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Novruzəli Davud oğlu Aslanovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

# Əli Həsənov: "Bəzi dairələr I Avropa Oyunlarını Azərbaycana qarşı aparılan "qara piar"ın baş mövzusuna çevirməyə çalışırlar"

Avropa Olimpiya Komitəsi Azərbaycanda I Avropa Oyunlarının keçirilməsi ilə bağlı qərar qəbul etdikdən sonra ötən dövr ərzində Təşkilat Komitəsi bu mühüm beynəlxalq idman tədbirinin yüksək səviyyədə təşkili üçün mühüm işlər görüb. Yeni idman qurğularının tikintisi, mövcud olan qurğuların yenidən bərpa olunması, sosial və nəqliyyat infrastrukturunun dünyadakı qabaqcıl standartlara uyğun təkmilləşdirilməsi, qonaqların yerləşdirilməsi, təhlükəsizlik və digər bu kimi məsələlər uğurla həll olunur və artıq başa çatmaq üzrədir. Avropa Olimpiya Komitəsi öz açıqlamalarında görülən işləri yüksək qiymətləndirib. Bütün bunlar əminliklə deməyə əsas verir ki, Azərbaycanda keçiriləcək I Avropa Oyunları öz möhtəşəmliyi ilə yaddaşlarda qalacaq. Bu fikirləri Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov AZƏRTAC-a müsahibəsində bildirib. Əli Həsənov deyib: **"Təəssüf ki, Azərbaycanın iqtisadi, sosial, siyasi, humanitar və digər sahələrdə əldə etdiyi uğurları davamlı şəkildə gözdən salmağa çalışan bəzi yerli qruplar və xarici dairələr bu fürsəti də əldən vermək istəmir və I Avropa Oyunlarını ölkəmizə qarşı həyata keçirilən "qara piar" kampaniyasının baş mövzusuna çevirməyə çalışırlar. "Amnesty International" təşkilatının I Avropa Oyunlarını boykot çağırışı, oyunlara hazırlıqla bağlı həyata keçirilən tədbirlər haqqında dezinformasiyaların dövriyyəyə buraxılması, xarici KİV-də sifarişlə yerləşdirilən qərəzli, qeyri-obyektiv materiallar və digər məsələlər bu cəhdlərin bariz nümunələridir".**



Prezidentin köməkçisinin sözlərinə görə, təsadüfi deyil ki, "Azadlıq" radiosu başda olmaqla bəzi maraqlı qüvvələr sosial şəbəkələrdə guya Azərbaycanda Avropa Oyunları ilə əlaqədar heyvanlarla qəddar davranıldığını əks etdirən video yayır və paylaşırlar: "Halbuki həmin videoda hadisənin məhz Azərbaycanda baş verdiyini təsdiq edən heç bir dəlil yoxdur. Bu da bir daha sübut edir ki, bu kimi "faktları" ortaya atanlar Avropa Oyunları ərəfəsində Azərbaycanın imicini ləkələməyə və mühüm beynəlxalq idman tədbirinə qarşı açıq təxribat törətməyə çalışırlar. Biz belə təxribatlarla əvvəllər də, 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsi keçiriləndə də rastlaşmışıq. Həmin dövrdə beynəlxalq ictimaiyyət əmin oldu ki, bütün bunlar Azərbaycana təzyiq göstərmək, onun müstəqil siyasətinə öz iradəsini qəbul etdirmək istəyən qüvvələrin qurduğu məkrli oyundan başqa bir şey deyil. Əminik ki, Azərbaycanı gözdən salmaq üçün istifadə olunan bu tipli primitiv, ucuz metodlar heç bir nəticə verməyəcək və nə qədər gec deyil, həmin qüvvələri məkrli niyyətlərindən geri çəkilməyə dəvət edirik".

## "Sonsuz dəhliz" "CNN Türk" kanalında

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası çərçivəsində türk dilinə tərcümə edilən "Sonsuz dəhliz" ("Endless Corridor") sənədli filmi martın 1-2-də "CNN Türk" kanalında yayımlanıb. Avropa Azərbaycan Cəmiyyətindən (TEAS) AZƏRTAC-a bildiriblər ki, sözügedən filmin yaxın aylar ərzində dünyanın digər televiziya kanallarında da yayımı nəzərdə tutulur. "Sonsuz dəhliz" filminin "Xocalıya ədalət!" təbliğat-təşviqat kampaniyası çərçivəsində İstanbul, Ankara, Roma, Vilnüs, London, Paris, Dublin, Berlin, Bern, Lüksemburq kimi şəhərlərdə təqdimatı keçirilib. İngilis dilində çəkilən film Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycan, türk, fransız, italyan və alman dillərinə subtitrlərlə tərcümə edilib, rus dilində isə dublyaj olunub.




Xatırladaq ki, filmin premyerası ötən il iyulun 1-də Londonda Britaniya Film və Televiziya İncəsənəti Akademiyasında (BAFTA) keçirilib. "Sonsuz dəhliz" sənədli filmi prodüserlər Aleksandr Brokas (Litva) və nüfuzlu "Grammy Award" mükafatçısı Cerald Rafşun (ABŞ) tərəfindən çəkilib. Film britaniyalı aktyor, BAFTA mükafatçısı Ceremi Ayronz tərəfindən səsləndirilib. Film Xocalı dəhşətlərinin şahidi olan litvalı jurnalist Riçard Lapaitisin faciədən 20 il sonra yenidən Azərbaycana gələrək qətliamdan xilas olmuş hadisə şahidləri ilə görüşlərində lentə alınmış xatirələri və Ermənistan tərəfindən faciənin təşkilində birbaşa iştirak etmiş şəxslərlə müsahibəsi əsasında qurulub, Qarabağın Azərbaycan tarixi və mədəniyyəti üçün əhəmiyyətinə dair süjetlərə yer verilib. Filmdə Xocalı soyqırımına dair indiyədək az məlum olan yeni faktlar, sənədlər və vaxtilə çəkilmiş videogörüntülər və fotomateriallara istinad edilir, qətliam haqqında həqiqətlər təsirli şəkildə tamaşaçıya çatdırılır.

## YAP Şəki təşkilatı üzvlərinin 34 faizini gənclər təşkil edir



Yeni Azərbaycan Partiyası (YAP) Şəki təşkilatının üzvlərinin 3712 nəfərini və ya 34 faizini gənclər təşkil edir. AZƏRTAC xəbər verir ki, bu barədə martın 4-də YAP Şəki təşkilatı Gənclər Birliyinin IV konfransında məlumat verilib. Tədbiri YAP Şəki təşkilatının sədri Həsən Həsənov açaraq, zəngin tarixə malik olan və zamanın çətin sınaqlarından çıxan Yeni Azərbaycan Partiyasının ölkəmizdə ən güclü və nüfuzlu siyasi qüvvəyə çevrildiyini, ətrafında cəmiyyətin intellektual təbəqələrini, partiyanın yaradıcısı ulu öndər Heydər Əliyev ideyalarına sadiq insanları birləşdirdiyini bildirib. YAP Şəki təşkilatı Gənclər Birliyinin sədri Daşqın Mikayılovun hesabat məruzəsində qurumun əvvəlki konfransdan keçən dövr ərzindəki fəaliyyəti ətraflı təhlil edilib, qazanılan uğurlardan, qarşıda duran vəzifələrdən bəhs olunub. Bildirilib ki, YAP Şəki təşkilatının hazırda 10903 nəfər üzvü var. Əvvəlki konfransdan ötən dövr ərzində 833 nəfər gənc partiya sıralarına qəbul olunub. Təşkilatın Gənclər Birliyinin üzvləri rayonun ictimai-siyasi həyatında fəal iştirak edirlər. Vurğulanıb ki, Azərbaycan gəncliyinin avanqard qüvvəsi olan YAP Gənclər Birliyinin fəaliyyəti dövlətçiliyimizin qorunmasına və inkişafına xidmət edir. Şəki gəncləri Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən gəncliyə yaradılan gözəl imkanları ürəkdən alqışlayır, Vətənimizin daha da inkişaf etməsi, çiçəklənməsi işində qüvvələrini əsirgəmirlər. Konfransda Milli Məclisin deputatı Kamilə Əliyeva, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, YAP Mərkəzi Aparatının məsul işçisi Emil Abbasov çıxış edərək, partiyanın Azərbaycan dövlətçiliyi qarşısındakı tarixi rolundan danışıb, gənclərə tövsiyələrini bildiriblər. Sonra təşkilatı məsələlərə baxılıb, YAP Şəki təşkilatı Gənclər Birliyinin Şura üzvləri və sədri seçilib, respublika konfransına nümayəndələr müəyyənləşdirilib. Partiya sıralarına yeni daxil olan gənclərə üzvlük vəsiqələri təqdim olunub. Sonda Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə müraciət qəbul edilib.

## Ekologiya və təbii sərvətlər naziri Şabranda vətəndaşları qəbul edəcək

Ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırov martın 13-də Şabran şəhərində yerləşən Heydər Əliyev Mərkəzində vətəndaşların qəbulunu keçirəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qəbulda Şabran, Quba, Qusar, Xaçmaz, Xızı və Siyəzən rayonları sakinlərinin şikayət və müraciətlərinə baxılacaq, lazımi tədbirlər görüləcək. Qəbula gəlmək istəyən vətəndaşlar ekologiya.nazirliyi@gmail.com və ecologiya.nazirliyi@eco.gov.az elektron poçt ünvanları, ETSN-in 168 saylı "Qaynar xətt"i, həmçinin Şabran Meşə Mühafizəsi və Bərpası Müəssisəsi (telefonlar: 050-474-89-28, 050-543-88-63, 023-35-3-23-40) ilə əlaqə saxlamaqla qeydiyyatdan keçə bilərlər.

## Azərbaycan Milli Elmlər Akademiyası rəyasət heyətinin növbəti iclası olub

Martın 4-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) rəyasət heyətinin iclası keçirilib. İclasda AMEA-nın prezidenti, akademik Akif Əlizadə ölkəmizdə elmin inkişafına böyük əhəmiyyət verildiyini vurğulayıb. Gündəlikdə duran məsələlər barədə məlumat verilib. İclasda AMEA-nın Naxçıvan və Gəncə bölmələrinin 2014-cü ildəki elmi və elmi təşkilati fəaliyyəti haqqında məruzələr dinlənilib, müzakirələr aparılıb.



# 5 mart ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günüdür

*5 mart ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günüdür. Bu tarix Azərbaycan Prezidenti Cənab İlham Əliyevin "Bədən Tərbiyəsi və İdman Günü"nün təsis edilməsi haqqında 4 mart 2005-ci il tarixli Sərəncamına əsasən qeyd edilir. Azərbaycanda Bədən Tərbiyəsi və İdman Gününün martın 5-də qeyd olunması təsadüfi deyil. Məhz 1995-ci il martın 5-də Ulu Öndər Heydər Əliyev Bakı İdman Sarayında Dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub.*

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin hələ 1997-ci ildə Milli Olimpiya Komitəsinin rəhbəri seçilməsindən sonra ölkəmizdə idmana və bədən tərbiyəsinə diqqət daha da artdı. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı isə tezliklə öz müsbət nəticəsini verdi. 2008-ci ilin avqustunda Pekində keçirilən Olimpiya Oyunlarında Azərbaycan idmançılarının qazandıqları qələbələri xüsusilə qeyd etmək lazımdır. Pekin Oimpiya Oyunlarında Azərbaycan 7 medal qazandı və dünyanın iki yüzdən çox ölkəsi arasında 38-ci yeri tutdu. Olimpiya oyunlarında qazanılan bu qələbə də, heç şübhəsiz, dövlətin idmana münasibətinin nəticəsi idi. Azərbaycan idmançılarının müxtəlif səviyyəli beynəlxalq yarışlarda beş mindən artıq medala layiq görülmələri, Olimpiya Oyunlarında qazanılan 4 qızıl, 3 gümüş və 9 bürünc medal böyük tarixi nailiyyətdir.

Bu gün Azərbaycan çox mötəbər beynəlxalq idman yarışlarına çox müvəffəqiyyətlə ev sahibliyi edir. Azərbaycan idmanı əsl yüksəliş dövrünü yaşayır. Prezidenti Cənab İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Dünyanın idman arenasında artıq özünə layiqli yer tutan Azərbaycan beynəlxalq yarışlara ev sahibliyi edir.

Xüsusi olaraq vurğulayaq ki, Azərbaycanın mötəbər tədbirlərə ev sahibliyi etməsində iqtisadi nailiyyətlərimiz də əsas amillərdəndir. Son on bir ildə Azərbaycan dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilib. Ümumilikdə son 11 ildə Azərbaycanda 300-dən çox beynəlxalq yarış keçirilib. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Belə ki, ölkəmizdə yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst güləş və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı və s. keçirilib. Bu yarışların Azərbaycanda keçirilməsi bir daha inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb.

Bu tədbirlərin, o cümlədən, bir çox idman növləri üzrə dünya və Avropa çempionatlarının Bakı şəhərində təşkilinin ənənəvi hal alması, ölkəmizdə yüksək səviyyədə yarışların keçirilməsi Olimpiya ailəsində böyük inam yaradıb. Əlbəttə, ilk növbədə, dövlət siyasəti bu istiqamətdə çox uğurla aparılır. Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi də elə bundan qaynaqlanır. Avropa Olimpiya Komitəsinin Baş Məclisində 2015-ci ildə Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilməsi, yuxarıda dediklərimizi əyani şəkildə təsdiq edir. İlk oyunların Bakıda keçirilməsi böyük nailiyyət sayılır. Heç şübhəsiz ki, bu sınaqdan da Azərbaycan uğurla çıxacaq və dünyaya göstərəcək ki, müstəqil və dinamik inkişaf edən Azərbaycan hər şeyə qadir olan ölkədir. Bu, Azərbaycanın dünyada təbliğ olunması baxımından da olduqca böyük əhəmiyyət kəsb edir.

Oyunların keçirilməsinə artıq 100 gün qalır. Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi etmək təcrübəsindən yararlanaraq hər işin yüksək səviyyədə təşkilinə nail olacaq. Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın dediyi kimi, **"Bir daha dünyaya göstərəcəyik ki, gənc, müstəqil, dinamik inkişaf edən Azərbaycan böyük uğurlara nail olubdur"**. Təbii ki, Azərbaycanda böyük potensial mövcuddur. Avropa Oyunlarına hazırlıq üçün Bakıda əzmkarlıqla çalışan güclü komanda fəaliyyət göstərir.

Bəli, bu gün Bakıda təşkil olunacaq Birinci Avropa Oyunlarına hazırlıq işləri görülür. Bütün dünyanın nəzəri Azərbaycana yönəlib. Ölkədə idman infrastrukturunun daha da gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsi olan Bakı Olimpiya Stadionunda da işlər sürətlə və yüksək keyfiyyətlə davam etdirilir.

Bakıya gələn və Birinci Avropa Oyunlarının iştirakçısı olan hər kəs bu möhtəşəmliyi görəcək və bir daha aydın olacaq ki, Azərbaycan idman ölkəsidir, dünya arenasında yeri və rolu var. Onu da bildirək ki, Azərbaycanın paytaxtı Bakı daha bir mötəbər idman yarışına - 2020-ci ilin Yay Olimpiya Oyunlarına ev sahibliyi etmək üçün namizədliyini irəli sürüb. İddiaçılar arasında reytinq cədvəlində birinci yerdədir. Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə idmanın və bədən tərbiyəsinin inkişafı sahəsində ardıcıl olaraq görülən tədbirlər Azərbaycanı həm də idman dövləti kimi tanıdır. "Sağlam bədəndə sağlam ruh olar" pirinsipinə söykənərək demək olar ki, Azərbaycan həm də sağlam gəncliyi və sağlam gələcəyi olan bir dövlətdir.

Müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilib. Ölkəmizdə idmana qayğı bu sahənin inkişafına böyük töhfələr verir. Bütün bunlar isə bir daha göstərir ki, ölkəmizdə idmanın inkişafı sistemli xarakter daşıyır.

**NƏZAKƏT**

# Mingəçevirdə gənclərin konfransı keçirildi

Konfrans iştirakçıları konfrans başlamazdan öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, Ulu Öndərin ruhuna öz ehtiramlarını bildiriblər. SİA-nın verdiyi məlumata görə, konfransı giriş sözü ilə açan YAP Mingəçevir şəhər təşkilatının sədri C.Yusubov konfransın gündəliyi haqqında məlumat verərək bildirib ki, hazırda YAP Mingəçevir şəhər təşkilatının 6734 nəfər üzvü var, onlardan 2786 nəfərini gənclər təşkil edir. Rayon təşkilatının 56 ərazi ilk partiya təşkilatı fəaliyyət göstərir: 1993-cü ilin 13 fevralında yaradılmış YAP Mingəçevir şəhər təşkilatı mühüm inkişaf yolu keçib, üzvlərinin və ərazi təşkilatlarının sayı əhəmiyyətli dərəcədə artıb. Bu da Mingəçevir şəhərində əhalinin YAP-a axını, ilk ərazi partiya təşkilatlarının yaradılması ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursa və onun layiqli davamçısı, Prezident İlham Əliyevə inamdan irəli gəlir.



YAP Mingəçevir şəhər təşkilatı Gənclər Birliyinin III konfransdan ötən müddət ərzində görülmüş işlərə dair hesabatı təqdim edən şəhər təşkilatı GB-nin sədri Bəxtiyar Mustafayev hesabat dövründə görülən işlərdən danışıb. Sonra hesabat ətrafında çıxışlar olub. Çıxış edən YAP Mingəçevir şəhər təşkilatı GB-nin üzvləri Lamiyə İbrahimova, Emin Paşayev və Elxan Cəfərov çıxış edərək, III konfransdan ötən müddət ərzində görülmüş işlərə dair hesabatı qənaətbəxş hesab etdiklərini bildirib və gənclərin fəaliyyətini yüksək qiymətləndiriblər. Sonra təşkilati işlərə baxılıb. YAP Mingəçevir şəhər təşkilatı Gənclər Birliyinin Şura üzvləri, İdarə Heyəti və YAP GB-nin növbəti konfransına nümayəndələri seçilib. Konfrans iştirakçılarının yekdil səsverməsinə əsasən Bəxtiyar Mustafayev YAP Mingəçevir şəhər təşkilatı Gənclər Birliyinin sədri, Ülviyyə Hüseynova və Eldar Dərişov sədrin müavinləri seçiliblər. YAP Mərkəzi aparatının məsul nümayəndəsi Araz Xudadanaov və YAP Gənclər Birliyinin sədri Seymur Orucov Gənclər Birliyinin çoxşaxəli fəaliyyətindən, həyata keçirilən uğurlu layihələrdən ətraflı söz açıb. Həmçinin YAP Mingəçevir şəhər təşkilatı Gənclər Birliyinin fəaliyyətini qənaətbəxş hesab edərək qarşıda daha böyük işlər görüləcəyinə inandığını qeyd edib. Sonda yeni seçilən idarə heyyətinə, sədr və müavinlərə uğurlar arzu edib, bundan sonrada YAP Gənclər Birliyi olaraq şəhər təşkilatı gənclərinə hərcür dəstək olacalarını vurğulayıb.

Çıxış edənlər bir daha Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin gənclərə göstərdiyi diqqət və qayğıdan bəhs ediblər. Yeganə milli siyasi qüvvə olan YAP-ın gənclərin fəaliyyəti və inkişafı üçün hərtərəfli şərait yaratdığı bildirilib. Çıxışlardan sonra konfrans işini yekunlaşdırıb.

# Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə və milli düşüncəyə malik gənclik formalaşıb

## *YAP Qax rayon təşkilatı Gənclər Birliyinin IV hesabat-seçki konfransı keçirilib*




Dünən Yeni Azərbaycan Partiyası (YAP) Qax rayon təşkilatı Gənclər Birliyinin IV hesabat-seçki konfransı keçirilib. Konfransı giriş sözü ilə açan YAP Qax rayon təşkilatının sədri Nizami Əhmədov qeyd edib ki, Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir: **"Bu gün Azərbaycan gəncliyi müxtəlif sahələrdə, o cümlədən idarəetmədə aktivlik nümayiş etdirir. Dövlətin gənclərə yüksək diqqət və qayğısı xüsusi stimul mənbəyi qismində çıxış edir. Öz növbəsində, YAP gəncliyinin inkişafına xüsusi diqqət göstərir"**. Daha sonra hesabat məruzəsi ilə çıxış edən YAP Qax rayon təşkilatı Gənclər Birliyinin sədri Elbrus Tağıyev vurğulayıb ki, bu gün rayon təşkilatının tərkibindəki 4081 nəfər partiya üzvündən 1791 nəfəri gənclərdir: **"YAP sıralarına yeni daxil olanların sırasında gənclər üstünlük təşkil edirlər. YAP sıralarında birləşmiş gənclər rayonun ictimai-siyasi həyatında fəallıq nümayiş etdirir, müxtəlif layihələr həyata keçirirlər"**. Daha sonra çıxış edənlər - Günel Məmmədova, Elvin Həsilov, Elnurə Qasayeva dövlətimizin gənclərə göstərdiyi diqqət və qayğının təqdirəlayiq hal olduğunu bildiriblər. Sonra tədbirdə çıxış edən Milli Məclisin deputatı Kamilə Əliyeva və "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu diqqətə çatdırıblar ki, Azərbaycanın milli inkişafına təkan verən strateji faktorlardan biri də uğurlu gənclər siyasətidir. Bildirilib ki, dövlət başçısının gənclər siyasəti ilə bağlı imzaladığı proqramların əhatəliliyini, onların gənclərlə bağlı ən müxtəlif sahələrdə görüləcək işləri əks etdirməsini və yüksək səviyyədə icrasını nəzərə aldıqda, Azərbaycanda gəncliyə və gənclərə, həqiqətən də, böyük önəm verildiyi bir daha aydın olur. Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Vurğulanıb ki, YAP, o cümlədən, partiyanın Gənclər Birliyi gənclərin fəallığına, onların potensialından səmərəli istifadə olunmasına xüsusi diqqət yetirir. Sonda təşkilati məsələlərə baxılıb. YAP Qax rayon təşkilatının Gənclər Birliyinin 29 nəfərdən ibarət Şurası, 9 nəfərdən ibarət İdarə Heyəti müəyyənləşib. Elbrus Tağıyev yenidən YAP Qax rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib. Eyni zamanda, YAP Gənclər Birliyinin respublika konfransına nümayəndələr seçilib. Konfransda partiya sıralarına yeni qəbul olunmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub.



# YAP Gədəbəy rayon təşkilatının gənclər birliyinin IV hesabat konfransı keçirilib

***Dünən Gədəbəy rayonunun Aşıq məktəbində YAP Gədəbəy rayon təşkilatının gənclər birliyinin IV hesabat konfransı keçirilib. Konfrans iştirakçıları ilk öncə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.***

120 nəfər konfrans nümayəndəsindən 118 nəfər partiya fəallarının iştirak etdiyi konfransı giriş sözü ilə açan YAP Gədəbəy rayon təşkilatının sədri Rüstəm Nağıyev bildirib ki, Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edib, onların ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması üçün mühüm addımlar atıb: "**Ümummilli Lider tərəfindən əsası qoyulan gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İnamla demək olar ki, möhtərəm Prezidentimiz, YAP Sədri Cənab İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsidir ki, bu gün Azərbaycan gələcəyə doğru inamla irəliləyir**".

Tədbirdə çıxış edən YAP Gədəbəy rayon təşkilatının gənclər birliyinin sədr müavini Alim Verdiyev hesabat məruzəsində qeyd edib ki, bu gün YAP Gədəbəy rayon təşkilatının 5811 nəfər üzvlərdən 2077 nəfəri gənclər, 1911 nəfəri isə qadınlar təşkil edir: "Ötən 2013-cü ildə keçirilən hesabat-seçki yığıncağından bizi 2 il ayırır. YAP Gədəbəy rayon təşkilatının gənclər birliyinin 3-cü hesabat konfransında üzvlərinin sayı 1862, bu gün isə 2077 nəfərdir. Bu müddət ərzində rayon təşkilatının gənclər birliyi bir çox işlər görmüş, öz sıralarını daha da genişləndirmişdir. YAP Gədəbəy rayon GB-nin üzvlərinin 746 nəfəri ali, 263 nəfəri orta ixtisas, 1068 nəfəri orta təhsillidir. Gənclərin 430 nəfəri təhsil, 181 nəfəri səhiyyə, 120 nəfəri idarəetmə sahəsində, qalan üzvlər isə digər idarə və müəssisələrdə çalışır, onların 52 nəfəri isə tələbədir. 32 nəfər gəncimiz isə ötən bələdiyyə seçkilərində seçicilərin etmadını qazanaraq bələdiyyə üzvü seçiliblər. Hesabat dövründə rayon təşkilatının gənclər birliyinin sıralarına 215 nəfər qəbul olunubdur. Biz YAP Gədəbəy rayon təşkilatının GB kimi müstəqilliyimizin əbədi, dönməz olması, ölkəmizin Ümummilli Lideri Heydər Əliyevin nəzərdə tutduğu kimi çiçəklənən diyar olması üçün əlimizdən gələni əsirgəməyəcəyik!"






Konfransın işində millət vəkili Sevinc Hüseynova, YAP Mərkəzi Aparatının məsul işçisi Rəfael Gülməmmədov, Gədəbəy RİH başçısının birinci müavini Qüdrət Paşayev ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasətindən, gənclərə göstərilən yüksək diqqət və qayğıdan bəhs ediblər. Çıxış edənlər, həmçinin yeni seçilən tərkibə gələcək işlərində uğurlar arzulayıblar. Sonra YAP Gədəbəy rayon təşkilatının GB-nin 15 nəfərdən ibarət şura üzvü və 7 nəfərdən ibarət idarə heyəti seçilib. Mürsəlov Vüqar Novruz oğlu rayon təşkilatının gənclər birliyinin sədri, Elvin Cahangirov Qabil oğlu müavin seçilib.

Sonda konfrans iştirakçıları adından ölkə Prezidenti İlham Əliyev Cənablarına müraciət qəbul olunub.

***Ü.ƏSGƏROV***

# Gənclər dövlətçiliyimizin möhkəmləndirilməsinə öz töhfələrini verirlər

## *YAP Naftalan şəhər təşkilatı gənclər birliyinin IV hesabat-seçki konfransı keçirilib*

***YAP Naftalan şəhər təşkilatı gənclər birliyinin IV hesabat-seçki konfransı keçirilib. Konfransda Naftalan şəhər icra hakimiyyətinin başçısının müavini Afət Cabbarova, YAP Naftalan şəhər təşkilatının sədri Hatəm Qocayev, rayon ziyalıları və fəal gənclər iştirak ediblər.***

Konfrans öz işinə başlamazdan əvvəl Azərbaycanın Dövlət Himni səsləndirilib, sonra Yeni Azərbaycan Partiyasının yaradıcısı Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə YAP Naftalan şəhər təşkilatının sədri Hatəm Qocayev açaraq, tədbirdə 80 nəfər nümayəndədən 78 nəfərinin iştirak etdiyini bildirib və konfransın işinə uğurlar arzulayıb.

H.Qocayev çıxışında gənclərə göstərilən yüksək diqqət və qayğıdan danışıb. O bildirib ki, gənclərin ölkənin ictimai-siyasi həyatında yaxından iştirakı üçün geniş imkanlar açılıb:"**Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, sosial-iqtisadi və digər sahələrində aktiv fəaliyyət göstərir, müasir və yeni düşüncə tərzi, yeni texnologiyalardan istifadə sahəsində intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir.**





YAP Naftalan şəhər təşkilatı gənclər birliyinin sədri Aynurə Novruzova hesabat məruzəsi ilə çıxış edərək, ötən dövr ərzində görülən işlərə nəzər salıb. A.Novruzova qeyd edib ki, YAP Naftalan şəhər təşkilatının gənclər birliyi 1995-ci ildə təsis olunub: "**Bu gün şəhər partiya təşkilatının 1146 üzvündən 377 nəfərini gənclər təşkil edir. Hesabat dövründə partiya sıralarına 279 nəfər gənc qəbul edilib. Gənclərimiz şəhərin ictimai-siyasi həyatında fəal iştirak edir, bütün sahələrdə, həmçinin elmdə və təhsildə böyük uğurlar qazanıblar**".

A.Novruzova Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə layiqincə həyata keçirilən dövlət- gənclər siyasətindən və bu siyasətin uğurlu bəhrələrindən danışıb. Konfransda gənclər adından çıxış edən Ayxan Əsgərov, Aysel Məmmədova və başqaları ölkə Prezidenti Cənab İlham Əliyev tərəfindən gənclərə göstərilən qayğı və diqqəti əməli işlərində layiqincə doğruldacaqlarını, Naftalan şəhərinin tərəqqisi və çiçəklənməsi naminə var qüvvələrini əsirgəməyəcəklərini bildiriblər.

YAP Naftalan şəhər təşkilatı gənclər birliyinin hesabat dövründəki fəaliyyətini qənaətbəxş hesab olunub. Konfransın qətnaməsi və qərarı qəbul olunub. Sonra konfransda təşkilati məsələlərə baxılıb. YAP Naftalan şəhər təşkilatı gənclər birliyinin şura və idarə heyətinin üzvləri, sədr və müavinləri seçiliblər. Aynurə Novruzova yekdilliklə yenidən YAP Naftalan şəhər təşkilatı gənclər birliyinin sədri seçilib. Həmçinin, YAP Gənclər Birliyinin respublika konfransına nümayəndələr seçilib.

Naftalan şəhər icra hakimiyyəti başçısının müavini A.Cabbarova və YAP Naftalan şəhər təşkilatı sədri H. Qocayev gənclər birliyinin yeni heyətini təbrik edərək, onlara gələcək işlərində nailiyyətlər arzulayıblar. Naftalan gənclərinin daim dövlətçiliyimizə, Ulu Öndərə sədaqətli olduqlarını, bundan sonra da yeni zəfərlərə imza atacaqlarına əmin olduqlarını bildiriblər.

***ZÜMRÜD***

# MÜDRİK VƏ FƏDAKAR AZƏRBAYCAN QADININ BARİZ NÜMUNƏSİ

Öz müdrikliyi, nüfuzu və zəkası, eləcə də incəlik və qətiyyəti ilə Vətəninin, millətinin qeyrətini çəkən, onun inkişafı naminə fədakarcasına mübarizə aparan Azərbaycan qadınları əsrlər boyu buraxdıqları izlərilə bu gün də şanlı tariximizdə yaşamaqdadırlar. Tarix boyu sübut olunmuşdur ki, Azərbaycan qadını cəmiyyətdə yalnız ailə mühiti ilə məhdudlaşmayıb, o cümlədən, ictimai həyatda da fəal olduqlarından layiqli mövqeyə sahiblik edib. Buna misal kimi Azərbaycan Milli Elmlər Akademiyasını göstərmək olar. Bu ali nüfuz ocağının 50 faizindən çoxunu qadınlar təşkil edir. Onların 1000 nəfərdən artıq nümayəndəsi elmi dərəcələri olan alim qadınlarımızdır... Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə xanım Əliyeva dünya oftamologiyasına çox dəyərli töhfələr vermişdir. Aida xanım İmanquliyeva ərəbşünas-alim, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının, SSRİ-də Ümumittifaq Şəqrqşünaslıq Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuşdur. O, bir sıra ölkələrdə keçirilən elmi konqreslərdə, simpoziumlarda və sessiyalarda məruzələr etmişdir.



*ZƏRİFƏ QULİYEVA,*
*YAP Qadınlar Şurası*
*İdarə Heyətinin üzvü*

## AZƏRBAYCANIN QADIN HƏRƏKATININ LİDERİ

Qadınlarımız dövlət quruculuğu prosesində, parlament və icra strukturlarında, elm və mədəniyyət sahələrində yeni-yeni nailiyyətlərə və uğurlara imza atır. Azərbaycan qadınlarının ictimai fəallığı elə bir səviyyəyə qalxmışdır ki, bütöv bir qadın hərəkatını xatırladır. Əminliklə deyə bilərik ki, bu hərəkatın aparıcı siması Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevadır. YUNESKO və İSESKO kimi mötəbər beynəlxalq təşkilatların xətti ilə Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyəti tarixinin səsini planetin ən ucqar güşələrinə belə çatdırmışdır. Azərbaycanın adət-ənənələrinin qoruyucusu, ümummilli problemlərimizin dünya müstəvisinə çıxarılmasında əvəzsiz xidmətləri olan Mehriban xanım Əliyeva ölkə daxilində və xaricdə keçirdiyi görüşlərdə dərin biliyə, geniş intellektə malik olduğunu hər dəfə nümayiş etdirməklə, böyük nüfuz qazanmışdır. O, Azərbaycan qadınları üçün bir örnək və nümunədir.

Mehriban xanım Əliyeva YAP-ın Sədr müavini kimi yüksək siyasi potensiala malik olduğunu da əməli fəaliyyətində təsdiqləyib. Belə ki, 2004-cü ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2013-cü ildən partiyanın Sədr müavinidir. 2005 və 2010-cu illərdə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərdə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 14 saylı Xəzər ikinci seçki dairəsindən irəli sürülmüş Mehriban Əliyeva müvafiq olaraq 92,12% (23106 səs) və 94,49% (31797 səs) səs toplayaraq millət vəkili seçilib. Mehriban xanım Əliyeva həm də həyat yoldaşına sədaqətli arxa-kömək olan, üç gözəl, yüksək intellektə və əxlaqa malik övladlara sahib olan bir anadır.

## MƏRHƏMƏTLİK SİMVOLU

Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun xəttilə Azərbaycanın dövlət uşaq siyasətinə xüsusi diqqət yetirərək, gənclərə xüsusi qayğı göstərir, onların respublikamızın layiqli vətəndaşları olması, kimsəsiz uşaqların sağlam böyüyüb boya-başa çataraq cəmiyyətə inteqrasiya etməsi və həyatda öz yerlərini tutmaları üçün mərasimlər, bayramlar, müxtəlif gərəkli layihələr həyata keçirir. Humanizm və mərhəmət prinsiplərini rəhbər tutan Mehriban xanım Əliyevanın təşəbbüsü ilə amnistiya aktlarının icrası həyata keçirilmişdir. İnsanların öz ailələrinə qovuşması, onların göz yaşlarının sevincə qərq olması əvəzsiz bir nemətdir. Heydər Əliyev Fondu beynəlxalq əməkdaşlıq çərçivəsində də fəaliyyətini uğurla davam etdirir. Pakistanda açılan təhsil müəssisələri, Budapeşt şəhərində korlar üçün uşaq evi, uşaq bağçası və ibtidai məktəbi əhatə edən mərkəzin yeni korpusunun inşa edilməsi, uşaqların qidalanması, müalicə təminatının daha yaxşı şəraitdə aparılmasına imkan yaradacaq "Laszlo Batthyanu" Roma Karolik Evinin mövcud binası üçün yataqxana korpusunun tikintisi və s. saysız-hesabsız xeyirxahlıq məqsədilə görülən işlər bizləri də sevindirir. Ərazisi 18 min km olan Müqəddəs Roma katakombaları Kompleksinin Heydər Əliyev Fondu tərəfindən bərpa edilməsi müsəlman dünyasının xristian aləminin bu mühüm abidəsinə töhfəsidir. Heydər Əliyev Fondunun sülhməramlı səfiri Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə həyata keçirilən tədbirləri saymaqla bitməz. Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq "birinci xanım" statusunu məhz Mehriban Əliyeva formalaşdıraraq cəmiyyətin həyatına birinci xanım ənənəsini gətirmişdir. Adətən, hər bir ölkənin birinci xanımı öz ölkəsində elmə, mədəniyyətə və təhsilə diqqət yetirir. Mehriban xanımın diqqətindən kənarda isə heç bir sahə qalmır. O, bütün bilik və bacarığını müxtəlif humanitar təşəbbüslərin reallaşmasına sərf edir. Eyni zamanda, Mehriban xanımı ölkə başçısı ilə ictimaiyyət arasında ən mahir əlaqələndirici hesab etmək olar. Onun irəli sürdüyü bir çox təşəbbüslər dövlət və vətəndaş birliyinin təmin edilməsində mühüm rol oynayır. Müsahibələrinin birində birinci xanım olmaq yükünün nə dərəcədə ağır olduğunu belə izah edir: **"Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür. Fikrimcə, vəziyyətindən və statusundan asılı olmayaraq bu və ya digər rolu oynamalı deyilsən və kimliyini saxlamağı bacarmalısan. Mən birinci xanım olmağımı, ilk növbədə, insanların bu və ya digər probleminin həlli üçün obyektiv fürsət kimi dəyərləndirirəm".**



*"Mən düz 20 il Heydər Əliyev kimi insanın yanında yaşamışam. Bizim ailəmiz hər zaman birlikdə olub, onun həyatının çətin və fərəhli günlərini bölüşmüşük."*

**Mehriban Əliyeva**

## BEYNƏLXALQ ALƏMİN DİQQƏTİNDƏ

Bu gün beynəlxalq mətbuatın diqqətində olan birinci xanımlar arasında məhz Mehriban xanım Əliyevanın adını göstərmək olar. Məsələn, İsrailin "Breaking İsrael News" portalı yazır: "Azərbaycanın müasir baxışlara malik birinci xanımı Mehriban Əliyeva öz fəaliyyəti ilə ölkə qadınlarına nümunə göstərir, onları cəmiyyətdə fəal olmağa ruhlandırır. Politoloq Yevgeni Kriştalyov Mehriban xanım Əliyevanı bu cür xarakterizə edir: **"O, mahiyyət etibarilə lider qadındır, özünün dəqiq mövqeyi, vətəndaş mövqeyi, ictimai mövqeyi olan qadındır. O, birinci xanım vəzifəsinin yükünü "elə-belə" sadəcə daşımır, ölkə parlamentinin deputatı, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və İSESCO-nun xoşməramlı səfiri kimi ölkənin ictimai-siyasi həyatında baş verən hadisələrdə bilavasitə iştirak edir. O, həmin vəzifələri sadəcə zərurət xatirinə, Azərbaycan Prezidentinin xanımı olduğuna görə deyil, səmimi qəlbdən, düşünülmüş şəkildə yerinə yetirir. Mehriban xanımın insani keyfiyyətləri ona bu dünyanın güclü simalarının çoxu ilə dil tapmaqda kömək edir".**

Məhz bu baxımdan, Mehriban xanım Əliyeva Azərbaycan qadın hərəkatının lideri kimi bir çox təltiflərə layiq insan kimi, şəxsiyyət kimi bu gün də ən nüfuzlu təşkilatlar tərəfindən yüksək dəyərləndirilməkdədir. Mehriban xanım Əliyeva Rusiya-Azərbaycan münasibətlərinin inkişafına verdiyi böyük töhfəyə, "Həştərxan vilayəti ilə bağlı xidmətlərinə" görə ordenlə təltif olunub. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın dünya mədəni irsinin qorunub saxlanılması istiqamətində gördüyü işlərə görə bir sıra dövlətlərin orden və medalları ilə təltif olunduğunu da vurğulamaq olar. Onların sırasında Pakistanın "Şəhid Benəzir Bhutto" adına mükafat, həmçinin "Daily Times" qəzeti və "Könüllü qadınlar təşkilatı" tərəfindən verilmiş "Humanizmin Simvolu. 2012-ci ilin Qadını" mükafatları da olub. O, həmçinin, Pakistanın "Hilal-e Pakistan" ordeni ilə də təltif olunub. Bu ölkənin prezidenti Məmnun Hüseyn 11 fevral 2015-ci ildə bu barədə sərəncam imzalayıb. Qeyd edək ki, "Hilal-e Pakistan" ordeni bu ölkənin ən ali ordenidir. Daha bir əsas məqam isə budur ki, Mehriban xanım Əliyeva adıçəkilən bu ali ordenlə təltif olunan ilk birinci xanımdır. Mehriban xanım bundan əlavə "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninin, Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupunun "2005-ci ilin adamı" mükafatının, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) qızıl medalının, Dünya Səhiyyə Təşkilatı (WHO) İcraiyyə Komitəsinin mükafatının, "Qızıl ürək" beynəlxalq mükafatının, Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatının, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeninin, Fransa Respublikasının "Şərəf Legionu" ordeninin, UNESCO-nun "Qızıl Motsart" medalının, Rusiya Federasiyasının İ. M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru, MDB iştirakçısı olan dövlətlərin Humanitar Əməkdaşlıq Şurasının və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun "Birlik Ulduzları" Dövlətlərarası mükafatının, Krans Montana Forumunun "Prix de la Fondation" mükafatının, Azərbaycan Kazaklar İttifaqının ali "Kazak şöhrəti" mükafatının, Türk-Alman Dostluq Federasiyasının "Kübele" Fəxri mükafatının, Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" Xüsusi Fəxri mükafatının, Küveyt Dövlətinin Fəxri Diplomunun sahibidir.

Beləliklə, bizlər bir daha əmin oluruq ki, Mehriban xanım istər ötən əsrin, istərsə də hazırkı dövrümüzün bütün mürəkkəbliklərinə baxmayaraq, öz ideallarına, mənəvi dəyərlərə, milli ənənələrə sadiq qalaraq, bu fəaliyyəti ilə dünyaya sübut edib ki, Azərbaycan qadınının şöhrəti, əzəməti və müdrikliyi ölməz və əbədidir!

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

5 mart 2015-ci il

# YAP Neftçala rayon təşkilatının gənclər birliyinin IV hesabat-seçki konfransı keçirilib




Dünən Yeni Azərbaycan Partiyası (YAP) Neftçala rayon təşkilatı gənclər birliyinin IV konfransı keçirilib. Heydər Əliyev Mərkəzində 200 nəfərə yaxın gəncin iştirak etdiyi konfransı YAP Neftçala rayon təşkilatının sədri Anar Cəfərov açaraq Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gedən sürətli quruculuq-abadlıq işlərindən, daxili və xarici siyasət sahəsində qazanılmış uğurlardan, Azərbaycan gənclərinin sağlam ruhda böyüməsi və layiqli vətəndaşlar kimi yetişməsi üçün ötən illər ərzində ölkə rəhbərliyi tərəfindən həyata keçirilən ardıcıl və sistemli tədbirlərdən danışıb. A.Cəfərov qeyd edib ki, YAP Neftçala rayon təşkilatının 54 ərazi ilk partiya təşkilatlarında 4299 nəfər üzvlərin 1770 (41,2%) nəfəri gənclərdir: **“Bu gün Ulu Öndər Heydər Əliyev ideyalarından bəhrələnən Azərbaycan gəncliyi Prezident İlham Əliyevin ətrafında sıx birləşərək gələcəyə inamla addımlayır”.**

YAP Neftçala rayon təşkilatı gənclər birliyinin sədri Vurğun Əkbərov ötən konfransdan keçən müddət ərzində YAP Neftçala rayon təşkilatı gənclər birliyinin gördüyü işlər barədə məlumat verib.

Hesabat məruzəsi ətrafında Heydər Əliyev Mərkəzinin direktoru Ruhəngiz Nəcəfova, rayon təşkilatı gənclər birliyinin üzvlərindən Gövhər Nağıyeva, Ülvi Fərzəliyev, Abuzərli Ümid və başqaları çıxış edərək, hesabatı qənaətbəxş qiymətləndiriblər.

YAP İdarə Heyətinin üzvü Kərim Kərimov gənclərə uğurlar arzulayıb və bildirib ki, Yeni Azərbaycan Partiyası cəmiyyətimizin ən güclü siyasi təşkilatı kimi ölkəmizdəki ictimai-siyasi proseslərin həmişə mərkəzində olub: **“Bu gün Ümummilli Lider Heydər Əliyev siyasətini uğurla davam və inkişaf etdirən ölkə Prezidenti, partiyamızın Sədri İlham Əliyevin gənclərə olan diqqət və qayğısı hər birimizin üreyincədir. Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirir, öz məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə öz töhfəsini verməyə çalışır”.**

Konfransın işində çıxış edən “SƏS” Media Qrupunun rəhbəri Bəhruz Quliyev Azərbaycanda gənclər siyasətini yüksələn xətt üzrə inkişaf etdiyini bildirib: **“Müasir Azərbaycanın təməlini qoyaraq onu gənclərə həvalə edən Ulu Öndər Heydər Əliyevin yolunu Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlət başçısı bütün çıxışlarında qeyd edir ki, gələcək gənclərin əlindədir. Dövlət başçısının bu etimadı siz gənclərin üzərinə böyük məsuliyyət qoyur. Gənclərimiz də bu missiyanın öhdəsində layiqincə gəlmək üçün daim axtarışda olmalıdır. Çünki gənclik yeniliyi sevən, ideyalarla zəngin bir qüvvədir. Prezident İlham Əliyev bu meyarları nəzərə alaraq ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük meydan verilməsinin tərəfdarı olmuş və ölkəmizdə bu şərait yaradılmışdır. Bu gün Azərbaycanda gənclər siyasəti dövlətin böyük önəm verdiyi prioritet sahələrdəndir. Gənclərimiz də bu imkanlardan yararlanır, cəmiyyətin inkişaf prosesinin avanqardına çevrilirlər”.**



B.Quliyev rayon təşkilatı gənclər birliyinin yeni tərkibinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Konfransda YAP Mərkəzi Aparatının məsul işçisi Ramil Mirzəyev çıxış edərək Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan, sıralarını günbəgün genişləndirən, bütövlükdə regionun aparıcı siyasi qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasında sağlam düşüncəli, vətənpərvər, yüksək intellektə və biliyə sahib gənclərə uğurlar arzulayıb.

Sonra təşkilati məsələlərə baxılıb. Ülvi Fərzəliyev YAP Neftçala rayon təşkilatının gənclər birliyinin sədri, Əli Məmmədzadə və Gövhər Nağıyeva gənclər birliyinin sədr müavinləri seçiliblər. Həmçinin, YAP Neftçala rayon təşkilatı gənclər birliyinin şura və idarə heyətinin üzvləri, eyni zamanda YAP Gənclər Birliyinin respublika konfransına 4 nəfər nümayəndə seçilib.

Tədbirdə bir qrup partiya üzvünə vəsiqələr təqdim olunub.

***R.KAMALQIZI***

# Rusiya səfiri: “Rusiya-Azərbaycan münasibətlərinin iqtisadi bazisi böhranlı halların mənfi təsirinə müqavimət göstərməyə imkan verir”



Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin Rusiya biznesinin və Azərbaycanda işləyən Rusiya-Azərbaycan müştərək müəssisələrinin nümayəndələrini birləşdirən Azərbaycan-Rusiya İşgüzar Əməkdaşlıq Palatasının fəalları ilə görüşüb. Səfirlikdən AZƏTAC-a bildiriblər ki, V.Doroxin tədbirdə çıxış edərək, Rusiya-Azərbaycan ticari-iqtisadi münasibətlərinin vəziyyəti, səfirliyin Rusiya şirkətləri ilə azərbaycanlı tərəfdaşların qarşılıqlı fəaliyyətinə yardım göstərilməsi istiqamətində işi barədə məlumat verib.

Səfir vurğulayıb ki, son illər Azərbaycan-Rusiya münasibətlərində yaradılan iqtisadi bazis dünya iqtisadiyyatında böhranlı halların mənfi təsirinə müqavimət göstərməyə imkan verib. İki ölkənin biznesmenləri arasında Rusiya-Azərbaycan mehriban qonşuluq ənənələrinə əsaslanan etimadın qorunub saxlanması, bir-birinin uğur qazanmasında maraqlı olmaq bunun mühüm təminatıdır. Görüş iştirakçıları Rusiya ilə Azərbaycan arasında ticari-iqtisadi münasibətlərin inkişafında palatanın rolunun artırılmasının zəruri olduğunu bildiriblər.

# “San-Marino Notizie” portalı ilk Avropa Oyunlarından yazır



“San-Marino Notizie” xəbər portalında “Bakı-2015” ilk Avropa Oyunlarına 100 gün qalır” sərlövhəli məqalə yayılıb. Məqalədə qeyd olunur ki, bu il keçiriləcək ilk Avropa Oyunlarına Azərbaycanın paytaxtı Bakı ev sahibliyi edəcək. Bu həyəcanlı və möhtəşəm idman tədbirinə San-Marinodan olan idmançılardan ibarət geniş nümayəndə heyəti də qatılacaq. İlk Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar 2012-ci ilin dekabrında Avropa Olimpiya Komitəsinin (AOK) Romada təşkil edilmiş Baş Assambleyasında qəbul edilib. 17 günlük yarış ərzində Avropanın müxtəlif ölkələrindən 6 mindən çox idmançı 20 idman növü üzrə öz qüvvəsini sınayacaq. Yazıda San-Marinonun bu yarışlarda təmsil olunması ilə bağlı da məlumat verilir və qeyd olunur ki, nümayəndə heyətinə Federiko Valentini başçılıq edəcək.

# Azərbaycanda gənclərin intellektual, fiziki və mənəvi inkişafı strateji məqsəd kimi müəyyənləşdirilib

## Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatı gənclər birliyinin IV konfransı keçirilib

***Dünən Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatı gənclər birliyinin IV konfransı keçirilib. Tədbir iştirakçıları öncə Ulu Öndər Heydər Əliyevin adını daşıyan parka gələrək, abidəsi önünə əklil və qızılgül dəstələri qoyublar.***





YAP Xətai rayon təşkilatının qərargahında da davam edən konfransı giriş sözü ilə açan rayon təşkilatının sədri, Milli Məclisin deputatı Hüseynbala Mirələmov ölkə Prezidenti İlham Əliyevin gənclərə göstərdiyi diqqət və qayğıdan danışaraq bildirib ki, Azərbaycanda gənclərə qayğı dövlət siyasətinin mühüm tərkib hissəsidir: **“Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Ölkəmizdə gənclər siyasətinin düzgün müəyyənləşdirilməsi dövlətin cəmiyyətdəki dayaqlarını möhkəmləndirməklə yanaşı dövlət siyasətinin dəstəklənməsinə və uğurla həyata keçirilməsinə təkan verir. Bu gün Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasəti ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir”.**

H.Mirələmov Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gedən sürətli quruculuq-abadlıq işlərindən, daxili və xarici siyasət sahəsində qazanılmış uğurlardan, Azərbaycan gənclərinin sağlam ruhda böyüməsi və layiqli vətəndaşlar kimi yetişməsi üçün ötən illər ərzində ölkə rəhbərliyi tərəfindən həyata keçirilən ardıcıl və sistemli tədbirlərdən danışıb.

YAP Xətai rayon təşkilatı gənclər birliyinin sədri Sarxan Əliyev hesabat məruzəsi ilə dövlət-gənclər siyasəti sahəsində görülən işlər barədə məlumat verərək qeyd edib ki, ölkəmizdə gənclərə göstərilən hərtərəfli qayğı onların ictimai-siyasi fəallığının artmasına mühüm töhfələr verir: “Yeni Azərbaycan Partiyasının sıralarında birləşən gənclər öz ictimai-siyasi fəallıqları ilə seçilirlər. Bu gün YAP Xətai rayon təşkilatının 17 min 843 nəfər üzvündən 4 minə qədərini gənclər təşkil edir. Üzvlərimizin böyük əksəriyyətini gənclərin təşkil etməsi Azərbaycan gəncliyinin partiyamıza olan rəğbətindən, Ümummilli Lider Heydər Əliyevin ideyalarına və Prezident İlham Əliyevin siyasətinə inamdan irəli gəlir”.

Sonra məruzə ətrafında Aqiyə Ağrılıyeva, Allahverdi Məmmədov, Könül Əfəndiyeva, Yalçın Əliyev və başqaları çıxış edərək ölkə Prezidenti İlham Əliyev tərəfindən gənclərə göstərilən qayğı və diqqəti əməli işlərində layiqincə doğruldacaqlarını bəyan ediblər.

Konfransın işində YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxış edərək ölkəmizdə gəncliyin inkişafı üçün yaradılan geniş imkanlardan danışaraq bildirib ki, bu inkişaf dövlətimizin gəncliyə göstərdiyi diqqət və qayğının nəticəsidir: “1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi ölkəmizin bir çox problemlərinin, o cümlədən, gənclərin problemlərinin öz həllini tapması ilə nəticələndi. Məhz Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin davam etdirdiyi dövlət-gənclər siyasəti nəticəsində bu gün gənclər cəmiyyətdə öz yerlərini tutublar və Azərbaycanın işıqlı gələcəyinin qurucularına çevriliblər. Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasəti və bu siyasət nəticəsində gənclərin təhsil, sosial müdafiə və işlə təminatı sahələrində atılan məqsədyönlü addımlar gənclərin Yeni Azərbaycan Partiyasına axınını gücləndirib”.

Tədbirdə çıxış edən YAP Xətai rayon təşkilatı idarə heyətinin üzvü, Xətai rayon icra hakimiyyətinin başçısı Razim Məmmədov bu gün ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, keçdiyi inkişaf yolundan, bu gün sıralarında 650 mindən çox insanı birləşdirərək gələcəyə böyük inamla irəliləməsindən geniş bəhs edib: “Bu gün ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Yeni Azərbaycan Partiyası Azərbaycan dövləti siyasətində gənclərə üstünlük verməklə bərabər bu istiqamətdə gənclər siyasəti gənclərin bilavasitə iştirakı ilə formalaşdırıb həyata keçirir. Bu, onu göstərir ki, Azərbaycan dövləti gənc nəslə həm etibar edir, onun qayğıları ilə məşğul olur, həm də gənclərin ideyalarını, təkliflərini bilavasitə özlərindən alaraq həyata keçirir. Prezident İlham Əliyevin müvafiq Sərəncamla təsdiqlədiyi “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın qəbul edilməsi məhz bu siyasətin bariz nümunəsidir”.

R.Məmmədov sonda YAP Xətai rayon təşkilatının gənclər birliyinin yeni seçiləcək heyətinə gələcək işlərində nailiyyətlər, yüksəliş uğurları arzulayıb. Sonda təşkilati məsələlərə baxılıb, rayon təşkilatının gənclər birliyinin 33 nəfərlik şurası, 17 nəfərlik idarə heyəti müəyyənləşib. Eyni zamanda, 4 nəfər YAP Xətai rayon təşkilatının gənclər birliyinin sədrinin müavinləri, həmçinin 8 nəfər YAP Gənclər Birliyinin IV konfransına nümayəndə seçilib.

**RƏFİQƏ HÜSEYNOVA**

# ABŞ Prezidenti Rusiyaya tətbiq edilən sanksiyaların müddətini daha bir il uzadıb

***ABŞ Prezidenti Barak Obama Ukraynanın şərqindəki böhranla əlaqədar Rusiyaya tətbiq edilən bəzi sanksiyaların müddətini daha bir il uzadıb. Bu barədə martın 3-də Ağ evin mətbuat xidməti məlumat yayıb.***

AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bu sanksiyalar aralarında rəsmilərin də olduğu bir çox Rusiya vətəndaşlarına və Ukraynanın keçmiş prezidenti Viktor Yanukoviçin dövründə hökumətdə vəzifə tutan bəzi şəxslərinə şamil edilmişdi. Bununla yanaşı, məhdudiyyətlər Rusiyanın bəzi iri biznesmenlərini, separatçı Donetsk və Luqansk “xalq respublikalarının” rəhbərliyini və bir neçə kompaniyanı da əhatə edir. Barak Obamanın sözlərinə görə o, belə nəticəyə gəlib ki, bütün bu sanksiyalar “2015-ci il martın 6-dan sonra da qüvvədə qalmalıdır”. Prezidentin bəyanatında bu məhdudiyyətlərin “daha bir il” qüvvədə qalacağı bildirilir.



## Azərbaycanda martın 29-da yay vaxtına keçiləcək

Martın 29-da Azərbaycan ərazisində yay vaxtına keçidlə əlaqədar saatların əqrəbi 1 saat irəli çəkiləcək. Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, Nazirlər Kabinetinin “Azərbaycan Respublikası ərazisində yay vaxtının tətbiq edilməsi haqqında” 17 mart 1997-ci il qərarına əsasən, hər il mart ayının son bazar günü saat 04:00-da əqrəblər bir saat irəli çəkilir: “Bu il də martın 29-da gecə saat 04:00-da Azərbaycan ərazisində saatlar 1 saat irəli çəkilməklə yay vaxtına keçiləcək”. Komitədən həmçinin bildiriblər ki, hər il oktyabrın ayının son bazar günü saat 05:00-da isə əqrəblərin bir saat geri çəkilməsi ilə yay vaxtı ləğv edilir. Bu qərarın həyata keçirilməsinə nəzarəti Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi həyata keçirir.

# YAP Ağcabədi rayon təşkilatı gənclər birliyinin IV konfransı keçirilib





YAP Ağcabədi rayon təşkilatı gənclər birliyinin IV hesabat-seçki konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə Heydər Əliyev Meydanına gələrək, Ulu Öndər Heydər Əliyevin abidəsi önünə çiçək dəstələri düzüb, Onun əziz xatirəsini böyük ehtiramla yad ediblər.

Yaqub Məmmədov adına Ağcabədi rayon mədəniyyət evində davam edən 286 nəfər nümayəndənin iştirak etdiyi konfransı YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov açıq elan etdikdən sonra, Yeni Azərbaycan Partiyasının qurucusu, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad olunub. Sonra Azərbaycanın Dövlət Himni səsləndirilib.

Tədbirdə YAP Ağcabədi rayon təşkilatı gənclər birliyinin sədr müavini Nicat Axundov məruzə ilə çıxış edərək qeyd edib ki, Yeni Azərbaycan Partiyası Gənclər Birliyi 1995-ci ildə təsis edilib:"Yarandığı vaxtdan etibarən, **təşkilat Azərbaycan gəncliyinin ən savadlı, intellektual, vətənpərvər nümayəndələrini ətrafına toplayaraq, ölkəmizin uğur qazanmasında pay sahibi olmağı bacarmışdır. Partiyamızın gənclər birliyi hər zaman, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və xalqımızın milli düşüncəsi, dünyagörüşü, adət-ənənələrini özündə əks etdirən azərbaycançılıq ideologiyasını, Cənab Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu daxili və xarici siyasət xəttini dəstəkləmişdir. Yeni Azərbaycan Partiyası Gənclər Birliyi, fəaliyyəti dövründə həm ölkədaxili, həm də sərhədlərimizdən kənarda bir çox uğurlara imza atmış, bütövlükdə ölkə gəncliyinin mütərəqqi gələcəyinin formalaşmasına töhfə verməyə çalışmışdır".** O, bildirib ki, hazırda YAP Ağcabədi rayon təşkilatı 98 ilk ərazi partiya təşkilatı ətrafında 11251 nəfər YAP üzvünü birləşdirir ki, onların 4461 nəfərini (39,6%) gənclər, 5091 nəfərini isə (45,2%) qadınlar təşkil edir.

Məruzəçi bildirib ki, YAP Ağcabədi rayon təşkilatının gənclər birliyi rayon təşkilatının keçirdiyi bütün tədbirlərdə fəal iştirak edir, Ulu Öndərin siyasi irsinin təbliği, gənclərin hərbi- vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərə sədaqət ruhunda tərbiyə olunması, gəncləri zərərli vərdişlərdən çəkindirmək üçün təbliğat-təşviqat işləri, profilaktiki tədbirlər, aksiyalar həyata keçirirlər.

O, qeyd edib ki, YAP Ağcabədi rayon təşkilatı gənclər birliyi rayonda keçirilən seçkilərdə, istər prezident, istər parlament, istərsə də bələdiyyə seçkilərində fəal iştirak edib.

Məruzə ətrafında gənclər birliyinin üzvüləri Elnur Quliyev, Məhsəti Ağayeva, Ağcabədi bələdiyyəsinin sədr müavini İldırım Əliyev çıxış edərək, hesabat dövründə gənclər birliyi tərəfindən həyata keçirilən işlər, görülən tədbirlər barədə konfrans iştirakçılarına məlumat veriblər. Bildirilib ki, bu gün gənclərimiz dövlət qayğısı ilə əhatə olunmuşlar. Bunun nəticəsidir ki, onlar yaradılmış şəraitdən maksimum istifadə edərək, öz bacarıqlarını ortaya qoya bilirlər.

Konfransın işində Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin sektor müdiri, YAP Siyasi Şurasının üzvü Qafar Əliyev və Ağcabədi rayon icra hakimiyyətinin başçısı, YAP Siyasi Şurasının üzvü Şahin Məmmədov çıxış edərək, gənclərin ölkənin ictimai-siyasi həyatında rolu, ölkədə həyata keçirilən gənclər siyasətindən, həmçinin gənclər qarşısında duran vəzifələrdən danışaraq, gənclərə öz tövsiyələrini veriblər.

Sonra konfransda təşkilatı məsələlərə baxılıb. YAP Ağcabədi rayon təşkilatı gənclər birliyinə 23 nəfərdən ibarət şura, 15 nəfərdən ibarət idarə heyəti seçilib.

Konfransda açıq səsvermə yolu ilə Elnur Quliyev YAP Ağcabədi rayon təşkilatı gənclər birliyinin sədri, Məhsəti Ağayeva və Nicat Axundov gənclər birliyinin sədr müavinləri, eyni zamanda, YAP Gənclər Birliyinin Konfransına nümayəndələr seçilib.

Konfransın işində YAP Mərkəzi Aparatının məsul işçisi Araz Xudadanov iştirak edib.

***ZÜMRÜD***



# YAP Daşkəsən rayon təşkilatı gənclər birliyi hesabat verdi



***Dünən YAP Daşkəsən rayon təşkilatı gənclər birliyinin IV konfransı keçirilib.***

Hesabat məruzəsi ilə YAP Daşkəsən rayon təşkilatı gənclər birliyinin sədr müavini Vüqar Məmmədov çıxış edərək bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan müstəqil gənclər siyasəti bu gün də öz müsbət nəticələrini verməkdədir: "**Ulu Öndər gənc nəslə daima öz qayğısını əsirgəməmiş, gənclərin ictimai-siyasi həyatda fəal iştirak etməsini, onların sosial ehtiyaclarını, yüksək səviyyədə təhsil almalarını, asudə vaxtlarını səmərəli keçirmələrini, hüquqlarının müdafiəsini, ümumiyyətlə, gənclərin hərtərəfli inkişafını təmin etmişdir. Ulu Öndərin hakimiyyətə qayıdışından sonra gənclərlə bağlı həyata keçirilən siyasətin xronoloji ardıcıllığına nəzər salsaq, görərik ki, ötən illər ərzində istər Ümummilli Lider Heydər Əliyev, istərsə də Onun layiqli davamçısı ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə geniş miqyaslı tədbirlər həyata keçirilmiş və gənclərlə bağlı problemlərin çoxu öz müsbət həllini tapmışdır".**

V.Məmmədov YAP rəhbərliyinin dəstəyilə "Yay məktəbi" və "Qış məktəbi" layihələrinin həyata keçirildiyini qeyd edərək, söyləyib ki, bu da gənclərin asudə vaxtlarının, istirahətlərinin yaxşı təmin edilməsi ilə yanaşı intellektual səviyyələrinin, dünyagörüşlərinin artmasına imkan yaradır. Rayon təşkilatının gənclər birliyinin sədr müavini onu da qeyd edib ki, ötən ilin oktyabr ayının 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva ilə birlikdə Daşkəsən rayonuna unudulmaz tarixi səfərin bütün daşkəsənlilərin böyük sevincinə səbəb olduğunu, gənclərimizin qurub-yaratmaq əzmini daha da artırdı.

Məruzə ətrafında Çanaqçı ərazi ilk partiya təşkilatının sədri Yusifov Arzuman, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Mərkəzi Aparatının məsul işçisi Rafael Gülməmmədov, Daşkəsən rayon icra hakimiyyəti başçısının İctimai-siyasi və humanitar məsələlər üzrə müavini Namiq Süleymanov, YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev çıxış edərək bildiriblər ki, YAP üzvü olan gənclərin düzgün formalaşdırılması ölkə rəhbərliyinin siyasətində önəmli yer tutur. Çıxışlarda o da vurğulanıb ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə nailiyyətlər qazanırlar.

Sonra təşkilati məsələlərə baxılıb, rayon təşkilatının gənclər birliyinin şura və idarə heyətinin üzvləri, həmçinin YAP Gənclər Birliyinin konfransına nümayəndələr seçilib. Konfransın sonunda YAP sıralarına qəbul olunmuş gənclərə partiyanın üzvlük vəsiqələri təqdim edilib.

***Z.HÜSEYNOVA***

## ARDNŞ qazma işini azaldıb

2015-ci ilin fevral ayı ərzində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (müştərək müəssisələr və əməliyyat şirkətləri istisna olmaqla) 6990 metr (ötən ay 7165 metr) qazma işi həyata keçirib. Trend ARDNŞ-nin saytına istinadən məlumat verir ki, bu sahədə görülmüş işlərin 6647 metri istismara, 343 metri isə kəşfiyyata aid olub. Ümumiyyətlə, 2015-ci ilin yanvar-fevral aylarında ARDNŞ üzrə (müştərək müəssisələr və əməliyyat şirkətləri istisna olmaqla) 14 155 metr qazma işi görülüb ki, bunun da 13 555 metri istismara, 600 metri isə kəşfiyyata aid olub. Qeyd edək ki, ilin əvvəlindən qazmadan alınmış 8 yeni quyu tikinti ilə başa çatdırılaraq mədənçilərə təhvil verilib..

# Azərbaycanda gənclər siyasəti dövlətin əsas prioritetidir

*Yeni Azərbaycan Partiyası (YAP) Masallı rayon təşkilatı gənclər birliyinin IV konfransı keçirilib*




Dünən Yeni Azərbaycan Partiyası (YAP) Masallı rayon təşkilatı gənclər birliyinin IV konfransı keçirilib. Tədbir iştirakçıları öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla yad ediblər. Sonra YAP Masallı rayon təşkilatı gənclər birliyinin gördüyü işlərlə bağlı hazırlanmış foto-slayda nümayiş etdirilib.

YAP Masallı rayon təşkilatının inzibati binasının akt zalında davam edən konfransı rayon təşkilatının sədri Seyfəddin Əliyev açaraq bildirib ki, YAP üzvü olan gənclərin düzgün formalaşdırılması ölkəmizin rəhbərliyinin siyasətində önəmli yer tutur: "**Ulu Öndər Heydər Əliyevin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olmuşdur. Gənclər yeni potensial olaraq, güc, yeniləşmə, müasirləşmə, inkişaf, tərəqqi və modernləşmə strategiyasının təməl sütunları deməkdir. Ulu Öndər Heydər Əliyev həmişə gənclərə güvənərək onlara böyük etimad göstərib. Azərbaycan gəncliyi dövlətin diqqət və qayğısını hər zaman öz üzərində hiss edib**".

Konfransda çıxış edən YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə ölkədə həyata keçirilən gənclər siyasətindən bəhs edib. Bildirib ki, müasir Azərbaycan dövlətinin memarı Ulu Öndər Heydər Əliyev hələ sovetlər dönəmində ölkəyə rəhbərlik



edərkən gənclərə böyük diqqət və qayğı ilə yanaşıb: "Ümummilli Liderin təşəbbüsü ilə məhz o dövrdə yüzlərlə azərbaycanlı gənc təhsil üçün xarici ölkələrə göndərilirdi. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə qəbul edilən və uğurla icra olunan 2007-2015-ci illəri əhatə edən Dövlət Proqramı sayəsində minlərlə gənc xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil alıb və hazırda bu proses davam edir".

Tədbirdə, həmçinin, YAP Masallı rayon təşkilatı gənclər birliyinin sədri Seymur Nuriyev hesabatla çıxış edərək bildirib ki, rayon təşkilatının gənclər birliyinin III konfransından ötən müddət ərzində gənc üzvlərin sayı 1668 nəfərdən 2803 nəfərə çatıb: "Təşkilatın gənclər birliyinin üzvlərinin sayı rayon təşkilatında olan üzvlərin 28 %-ni təşkil edir. Halhazırda rayon təşkilatı gənclər birliyi üzvlərinin 863 nəfəri gənc qadınlardır. Ötən ildə partiya sıralarına qəbul edilənlərin 53,7 %-i, yəni 282 nəfərini gənclər təşkil edib. Cari ilin 2 ayı ərzində partiya sıralarına 256 nəfər daxil olub ki, onların da 167 nəfəri gənclər təşkil edir. Bu da 2015-ci ildə partiya sıralarına daxil olan üzvlərin 65,2 %-i deməkdir. Gənc YAP üzvlərinin 31%-nin, yəni 868 nəfərin ali təhsili var. 15,3%-ni, yəni 429 nəfərini isə orta ixtisas təhsilli gənclər təşkil edir. Gənclərin fəaliyyət sahələrinə görə təhsildə 862 nəfər, səhiyyədə 186 nəfər, elm, mədəniyyət və incəsənətdə 91 nəfər, idarəetmə orqanlarında 95 nəfər, digər sahələrdə isə 1128 nəfər gənc çalışır. İdman sahəsində olan gənclərimiz böyük nailiyyətlərə nail olublar". S.Nuriyev onu da qeyd edib ki, bu gün ölkəmizdə Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin rəhbərliyi altında çox düşünülmüş və məqsədyönlü gənclər siyasəti aparılır: "Bu siyasətin təməlində Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin tövsiyələri dayanır. 1993-cü ildən başlayaraq, bütün sahələrdə olduğu kimi, gənclər siyasəti istiqamətində də çox vacib mühüm addımlar atılıb. Görülən işlərin nəticəsidir ki, bu gün gənclərimiz böyük nailiyyətlərə imza atırlar, cəmiyyətdə mühüm rol oynayırlar. Məhz bunun nəticəsidir ki, ötən il bələdiyyə seçkilərində 366 bələdiyyə yerinə 124 gənc YAP üzvünün namizədliyi irəli sürüldü. İrəli sürülmüş namizədlərin 116-sı müvafiq bələdiyyələrə seçildilər və onların da 27-si gənc qadınlar oldu. Bələdiyyələrə seçilmiş gənc YAP üzvlərinin 8-i bələdiyyə sədri onların 4-ü qadın, 17 nəfəri isə bələdiyyə sədrinin müavini və onlarında 8-i qadın olmuşdur".

Sonra təşkilati məsələlərə baxılıb. YAP Masallı rayon təşkilatı gənclər birliyinin 27 nəfərdən ibarət şurası, 11 nəfərdən ibarət idarə heyətinin üzvləri seçilib. İştirakçıların yekdil rəyi ilə Hüseynov Məmmədhüseyn Rizvan oğlu YAP Masallı rayon təşkilatı gənclər birliyinin sədri, Əliyev Cəlal Aftandil oğlu sədrin I müavini, Əsgərov Tofiq Asif oğlu və Bəşirova Kəmalə Məsləhət qızı müavinləri seçiliblər. Konfransda YAP Gənclər Birliyinin respublika konfransına nümayəndələr də seçilib.

Konfransın işində YAP Mərkəzi Aparatının məsul işçisi Məcid Əhmədov iştirak edib. Sonda konfrans iştirakçıları adından ölkə Prezidenti İlham Əliyev Cənablarına müraciət ünvanlanıb.

**R.HÜSEYNOVA**

# "Dövlətin diqqət və qayğısı yüksək qiymətləndirilir"

***Dünən Nizami rayonunda Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri ilə görüş keçirilib. İlk öncə torpaqlarımızın bütövlüyü və Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi yad edilib, dövlət himni səsləndirilib.***

Görüşdə çıxış edən "Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin Bakı şəhəri Nizami rayon şöbəsinin sədri Məhi Mehdiyev son illər ölkəmizdə əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlərdən danışıb. Bildirib ki, bu istiqamətdə görülmüş tədbirlər çərçivəsində ünvanlılıq prinsipinə əməl olunub, aztəminatlı, ailə başçılarını itirən, eləcə də, şəhid ailələri, müharibə əlilləri və veteranları, xüsusi qayğıya ehtiyacı olanlar dövlətin diqqət və qayğısı ilə əhatə olunublar.

Tədbirdə çıxış edən "Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin sədri Mehdi Mehdiyev dövlətin sözügedən kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərdən danışıb: "Müharibə əlillərinin, şəhid ailələrinin mənzil probleminin həlli istiqamətində görülən mütərəqqi işləri xüsusilə vurğulamaq lazımdır. "tən dövr ərzində minlərlə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri mənzillə təmin edilib. Bununla yanaşı, hərəkət-dayaq sistemi pozulmuş əlillərimizin reabilitasiyası, müalicəsi istiqamətində atılan addımlarla bərabər, onların minik avtomobilləri ilə təmin olunması yönündə də mühüm işlər görülüb.

Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva görüşdə çıxış edərək bildirib ki, Azərbaycanda Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə yüksək dövlət qayğısı göstərilir: "**Bu siyasətin əsası isə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Liderimiz tərəfindən 1994-cü il avqust ayının 26-da imzalanan "Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" Fərman müharibə əlillərinin sosial ehtiyaclarının ödənməsi istiqamətində atılan ilk addım oldu. Həmin Fərmanın imzalanması ilə müharibə iştirakçılarının, əlillərinin sosial müdafiəsini gücləndirmək məqsədilə tədbirlərə start verildi. Bu gün bu siyasət yeni mərhələyə qədəm qoyub. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir**".





Nizami rayon icra hakimiyyətinin başçısı, YAP Siyasi Şurasının üzvü Tahir Budaqov çıxışında dövlət əlil vətəndaşların çoxsaylı sosial proqramlara, o cümlədən, reabilitasiya, pulsuz istirahət, texniki-bərpa və nəqliyyat vasitələri ilə təminat proqramlarına cəlb olunmasını həyata keçirir: "Əlil vətəndaşlara dövlət qayğısının gücləndirilməsi siyasətinə uyğun olaraq Nazirlər Kabineti tərəfindən əlillərin sosial müdafiəsi ilə bağlı nəzərdə tutulmuş Dövlət Proqramının maliyyələşdirilməsi təmin olunub. "Sosial müavinətlərin məbləğinin artırılması haqqında", "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması və "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanları bu kateqoriyadan olan insanların rifah halını yaxşılaşdırmaq və onlara göstərilən dövlətin dəstək və davamlı qayğısının bariz nümunəsidir".

Sonra çıxış edən müharibə əlilləri və şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını çatdırıblar.

Tədbirin sonunda "Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin üzvlərinə yeni döş nişanları və vəsiqələr təqdim edilib.

***İntizarə Məmmədova***

# "Baku Guide" kataloqunda xalqımızın Novruz bayramından söz açılır






***"Su çərşənbəsi"ndə donmuş sular, çaylar hərəkətə gəlir, "Od çərşənbəsi" təbiətdə hərarətin yarandığını göstərir. Sonra "Yel çərşənbəsi" gəlir - bu, qarşıdan gələn yeni ilin mehidir. Nəhayət, ilaxır çərşənbələrin dördüncüsü "Torpaq çərşənbəsi" - şaxtalı qışdan sonra canlanan torpağın simvolu, Novruzun son müjdəsidir".***

Azərbaycana gələn turistlərin, paytaxtımızın qonaqlarının bələdçisinə çevrilmiş "Baku Guide" kataloqunun mart sayında xalqımızın tarixi minillərlə ölçülən milli bayramı - Novruz bayramına xüsusi yer ayrılıb. Nəfis tərtibatda işıq üzü görən nəşrdə milli bayramımız haqqında dolğun məlumat verilir, Novruz ənənələrindən söz açılır. Kataloqun növbəti sayı turistlər, aktiv istirahət həvəskarı olan paytaxt sakinləri üçün maraq doğuracaq informasiyalar, müxtəlif mövzularda yazılarla zəngindir.

Yeni nəşrdə paytaxtımızın ev sahibliyi edəcəyi I Avropa Oyunlarına hazırlığın gedişi barədə "Bakı 2015" Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon Kleqə ünvanlanan suallar da yer alıb ki, oxucular onun maraqlı cavabları ilə də tanış olmaq imkanı qazanacaqlar.

Azərbaycan, ingilis və rus dillərində hazırlanan nəşrdə şəhərimizin mədəni və işgüzar həyatı, mart ayında nəzərdə tutulan müxtəlif tədbirlər haqqında geniş məlumatlar, teatr və konsert müəssisələrinin repertuarı, muzey və sərgi salonlarının, əyləncə mərkəzlərinin afişası oxuculara təqdim olunur.

"Bakı bulvarında gəzinti" adlı məqalə şəhərimizin qonaqlarında dolğun təəssürat yaratmaqla yanaşı, onları möhtəşəm Dənizkənarı Milli Parkın gözəlliyini yenidən kəşf etməyə sövq edəcək. "Ginnesin rekordlar kitabı"na düşən Miniatür Kitab Muzeyindən reportaj da oxucuların marağına səbəb olacaq. "Azərbaycan mətbəxi" rubrikasını oxuyanlar milli şirniyyatımız şəkərburanın hazırlanma qaydası ilə tanış olacaqlar.

Turistlər üçün informasiya bölməsində onları maraqlandıra biləcək suallar ətraflı cavablandırılır. Kataloqda həmçinin şəhərdəki hotel, restoran, ticarət və əyləncə məkanları, turizm agentləri, aviakassalar və s. barədə məlumatlar yer alıb.

***NƏZAKƏT***

## Fevral ayında 14,218 mindən çox sığorta müqaviləsi bağlanılıb

Fevral ayı ərzində daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası və sərnişinlərin icbari fərdi qəza sığortası üzrə 14,218 mindən çox sığorta müqaviləsi bağlanılıb.

İcbari Sığorta Bürosundan AZƏRTAC-a bildiriblər ki, 2015-ci ilin fevral ayında daşınmaz əmlakın icbari sığortası üzrə 13,448, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə 712, sərnişinlərin icbari fərdi qəza sığortası üzrə 58 sığorta müqaviləsi bağlanılıb. Daşınmaz əmlakın icbari sığortası üzrə daxil olan sığorta haqlarının məbləği 3,807,506 manat, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə 49,200 manat, sərnişinlərin icbari fərdi qəza sığortası üzrə 11,002 manat təşkil edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə daşınmaz əmlakın icbari sığortası müqavilələrinin sayında 7 faiz azalma, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası müqavilələrinin sayında 57 faiz artım, sərnişinlərin icbari fərdi qəza sığortası müqavilələrinin sayında 5,8 dəfə artım müşahidə edilib. Daşınmaz əmlakın icbari sığortası müqavilələrinin 76,03 faizi yaşayış evləri və mənzillər, 0,42 faizi inzibati binalar, 23,55 faizi digər daşınmaz əmlakla bağlı olub.

## Azərbaycan Müdafiə Nazirliyindən erməni valideynlərə müraciət: övladlarınızı mənasız xəyallar uğrunda ölümə yollamayın

Ermənistanın müdafiə naziri Seyran Ohanyanın bəyanatı vicdanını və şərəfini günahsız dinc insanların qanı ilə ləkələmiş cəlladın növbəti uydurmasıdır. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xocalıda və Azərbaycanın işğal olunmuş digər ərazilərində mülki əhaliyə, o cümlədən körpələrə, qadınlara və ahıllara divan tutan bir şəxsin öz torpaqlarının işğaldan azad edilməsi uğrunda döyüşən Azərbaycan xalqını təhqir edərək insaniyyətdən danışmağa mənəvi haqqı və hüququ yoxdur. Yüzlərlə uşağı qanına qəltan edən bu cani öz övladlarının və Azərbaycanın işğal olunmuş ərazilərində nahaq yerə məhv edilən, yaralanaraq şikəst olan ermənilərin uşaqlarının və yaxınlarının gözünə baxa bilirsə, bu onun psixi cəhətdən anormal olduğunu göstərir. Bu gün və illərdir ki, S.Ohanyanın və cinayətkar erməni rəhbərliyinin ağlasığmaz təkəbbürünün əvəzini erməni xalqı hər gün qapılarına gətirilən tabutlarla ödəyir. Biz erməni valideynlərə müraciət edərək övladlarını mənasız xəyallar uğrunda ölümə yollamamağa çağırırıq. Çünki son erməni işğalçısı Azərbaycan torpaqlarını tərk edən günədək siz bundan da ağır və sarsıdıcı itkilərlə qarşılaşacaqsınız.

## Füzuli və Sabirabadda 600-dən çox vətəndaşa səyyar formada şəxsiyyət vəsiqələri verilib

Daxili İşlər Nazirliyi (DİN) Füzuli və Sabirabad rayonlarında 600-dən çox vətəndaşa səyyar formada şəxsiyyət vəsiqələri verib. DİN-in mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin təşəbbüsü, Füzuli və Sabirabad rayon Polis şöbələrinin müvafiq xidmət əməkdaşlarının iştirakı ilə bu rayonlarda vətəndaşlara şəxsiyyət vəsiqələrinin verilməsi ilə bağlı səyyar xidmət keçirilib. Füzuli rayonunda baş tutmuş tədbir nəticəsində orta ümumtəhsil məktəblərinin buraxılış sinif şagirdləri və şəxsiyyət vəsiqələrinin etibarlılıq müddəti bitmiş sakinlər də daxil olmaqla, ümumilikdə 170 nəfərin müvafiq sənədləri qəbul edilib. Bununla yanaşı, 140 yeni şəxsiyyət vəsiqəsi sahiblərinə təqdim olunub. Sabirabad rayonunda keçirilmiş növbəti səyyar xidmət zamanı isə 462 nəfərin, həmçinin orta məktəblərin buraxılış sinif şagirdlərinin və şəxsiyyət vəsiqələrinin etibarlılıq müddəti bitmiş şəxslərin sənədləri qəbul edilərək onlara da yeni vəsiqələr verilib.

# İşğalçı Ermənistan cəzasız qala bilməz

## *Elşad Mirbəşiroğlu: "Ermənistan Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə tənzimlənməsində maraqlı deyil"*

***Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində rəsmi Bakının göstərdiyi konstruktiv mövqeyi fonunda Ermənistanın destruktiv fəaliyyətinə dünya birliyinin hələ də ikili yanaşma nümayiş etdirməsi nə zamana qədər davam edə bilər? Məsələyə münasibət bildirən politoloq Elşad Mirbəşiroğlu bildirdi ki, bu günə kimi Dağlıq Qarabağ münaqişəsinin həlli yolunun tapılmamasının əsas səbəbi dünya ictimaiyyətinin ikili mövqedən yanaşmasıdır: "Bəzi dövlətlər və beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı obyektiv mövqe nümayiş etdirmir.***




Yeni Azərbaycanın ərazilərinin işğal olunması faktı birmənalı olaraq qəbul olunmur. Bildiyiniz kimi, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. Həmin qətnamələr də işğalçı Ermənistanın adı konkret olaraq çəkilmir. Bu özlüyündə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə çox böyük mənfi təsir göstərən amildir".

Politoloqun sözlərinə görə, Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal etdiyinə görə, dünya birliyi Ermənistana qarşı sanksiyalar tətbiq edilməli idi: "Təəssüflər olsun ki, bu gün açıq şəkildə Ermənistanın işğalçı bir ölkə olması etiraf olunmur. Bu da beynəlxalq birliyin ermənipərəst mövqedən çıxışını göstərən məqamdır. Təbii ki, hər zaman Azərbaycan tərəfi beynəlxalq hüquq normalarına sədaqət nümayiş etdiribdir və dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə tənzimlənməsi üçün bütün səylərini səfərbər edir. ATƏT-in Minsk Qrupunun təklif etdiyi yenilənmiş Madrid prinsipləri əsasında problemin tənzimlənməsinə Azərbaycan tərəfi müsbət yanaşmışdır. Azərbaycan dövləti bu prinsiplərə "hə" dediyi vaxtda Ermənistan hələ də bu prinsiplərə münasibət sərgiləməmişdir. Bu da onu göstərir ki, işğalçı ölkə olan Ermənistan münaqişə vəziyyətinin qalmasında maraqlı bir tərəfdir. Bir sözlə, Ermənistan Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə tənzimlənməsində maraqlı deyil. Ermənistan bir dövlət olaraq işğalçılıq siyasətini prioritet kimi qəbul etdiyini göstərir. Bu baxımdan da, bu günə kimi, münaqişə öz həllini tapmayıb. Yeni münaqişənin mahiyyətinə, səbəblərinə və tənzimlənməsi prosesinə qeyri-obyektiv, konstruktiv yanaşması Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasına səbəb olub".

***GÜLYANƏ***

***Qərblə Ukrayna uğrunda dərinləşməkdə olan qarşıdurma Rusiyanı dərin iqtisadi böhrana yuvarlanmaq təhlükəsi ilə qarşılaşdırıb. Gözlənildiyi kimi, bu böhran, müəyyən dərəcədə, onun Avrasiya İqtisadi Birliyi üzrə tərəfdaşları olan ölkələrdən də yan keçmir. Ən böyük zərbəni isə iqtisadi baxımdan zəif olan Ermənistan öz üzərində hiss edir. Baxmayaraq ki, bu ölkənin hakim dairələri Ermənistanın tezliklə əhəmiyyətli dərəcədə mənfəət əldə edəcəyini təbliğ edirdilər.***



# Rusiya-Ermənistan münasibətləri yeni geosiyasi reallıqlar kontekstində

Ermənistanın Avrasiya İqtisadi Birliyinə daxil olduqdan sonra ixracatının artacağı barədə verilən proqnozlar reallaşmadı. Ölkədə iqtisadi vəziyyətin dözülməz həddə yaxınlaşdığını erməni mətbuatı geniş şərh edir. "Lragir" saytının verdiyi məlumata görə, hər şey Rusiya bazarındakı vəziyyətlə bağlıdır, çünki Qazaxıstan və Belarus elə bir əhəmiyyətli rol oynamır, Ermənistanın isə bu ölkələrlə yeni razılaşmaları yoxdur. Ermənistan müəssisələri Rusiya Federasiyasına öz məhsullarını daha baha qiymətə satmaq niyyətindədirlər, çünki müqavilələr rublla bağlanmış, rubl isə xeyli dəyərsizləşmişdir. Lakin, Rusiya bazarında bahalı məhsul alınmır və belə məhsul rəqabətə tab gətirmir. Yanvar ayında ixracat kəskin şəkildə azaldı. Daha çox zərər çəkən isə konyak və çaxır tədarükçüləridir. Rusiya tərəfi valyuta ilə işləmək, Ermənistan şirkətləri isə zərərə işləmək istəmirlər. Hər şey sanki donmuşdur (bax: Rossiyskiy rınok dlə armənskix gksporterov zakrıvaetsə / ''Lragir'', 10 fevral, 2015).

Mövzunu davam edərək ''Qraparak'' qəzeti Rusiya bazarına mallarını ixrac edən şirkətlərin həyəcan təbilini çaldıqlarını bildirir.İstehsalçılar bizneslərinin zəiflədiyini, dəyərsizləşmiş rublla bağlanmış sövdələşmələrin ağır nəticələrindən xəbər verirlər. "Aykakanjamanak'' qəzeti yazır ki, Ovik Abramyanın başçılıq etdiyi nümayəndə heyətinin Moskvayasəfəri tam uğursuzluqla nəticələndi. Qəzetin hökumətdəki mənbələri xəbər verirlər ki, Ermənistanın baş naziri heç bir məsələ ilə, o cümlədən qazın qiymətinin aşağı salınması ilə bağlı ortaq nəticəyə gələ bilməmişdir (bax: SMİ Armenii: armeno-rossiyskie otnoşenia doşli do toçki / ''İnoSMİ'', 19 fevral, 2015).

Ermənistanda güman edirdilər ki, müvafiq razılıq əldə etdikdən sonra qazın qiymətini rubl ilə ödəyəcələr. Həmçinin erməni tərəf iri Rusiya şirkətlərini də cəlb etməyə və ya Rusiya hökumətindən böyük həcmli kredit əldə etməyə ümid edirdi. Lakin heç bir bəndlə bağlı nəticə əldə olunmadı. ''Jamanak'' bunun ən azı gülməli olduğunu, Rusiyanın məhv olmaqda olan iqtisadiyyatına ümid etmək yox, Ermənistanın uçuruma getməsinin qarşısını hansısa başqa bir yolla almaq barədə düşünmək lazım olduğunu bildirir. Heç kim Ermənistana maliyyə qoymaq istəmir, Rusiyaya gəldikdə isə, bu barədə danışmaq ümumiyyətlə təəccüblü olardı, çünki onun özünün çoxlu miqdarda maliyyəyə ehtiyacı var (bax: Aram Amatuni. Davos ne pomoq bı v dele gksporta oqrüov i pomidorov / ''Jamanak'', 10 fevral 2015).

"Lragir''in qiymətləndirmələrinə görə, Ermənistan-Rusiya iqtisadi münasibətləri ümumiyyətlə kritik həddə yaxınlaşır. Bundan sonra "dekolonizasiya'' başlayacaqdır. Rusiyanın hazırda Ermənistana dəstək verə bilməməsi mütləq ona gətirib çıxaracaqdır ki, İrəvan yeni mənbə və bazar axtarışına çıxacaqdır. Moskva İranla qaz məsələsi ilə bağlı münasibətlər qurmağa, ABŞ-la Vorotan Su Elektrik Stansiyası ilə bağlı sövdələşmələrə, AvropaİttifaqI (Aİ) ilə azad ticarət zonası haqqında müqavilə bağlamağa imkan vermir (bax: Naira Ayrumən. Armeno-rossiyskie otnoşenie doşli do kritiçeskoy toçki / ''Lragir'', 12 fevral 2015).

Belə mürəkkəb bir situasiyada seçim imkanları məhdud olan Ermənistan sığortalanmaq istəyir. Ölkə yanvar ayında Moskvanın rəhbərlik etdiyi Avrasiya İqtisadi Birliyinə daxil olsa da, yüksək vəzifəli erməni məmuru EurasiaNet.org-a bildirib ki, İrəvan Aİ ilə assosiasiya haqqında müqavilənin yeni versiyası üzərində dondurduğu işini bərpa etmişdir (bax: Qaəng Abramən. Armenia vozobnovila pereqovorı ob assoüiaüii s Evrosoözom / ''Eurasianet'', 10 fevral 2015).

Baş verən son geosiyasi proseslərin inkişafı fonunda Ermənistanın siyasi mövqeyi də xeyli zəifləyib. Son bir neçə həftə ərzində rəsmi İrəvan "ənənəvi Ermənistan-Rusiya münasibətlərinin ruhuna'' heç cür uyğun gəlməyən bəzi jestlər etmişdir. Yanvarın 28-də Ermənistanın AŞPA-dakı nümayəndə heyəti Rusiyanın bu qurumda səs hüququndan məhrum edilməsi məsələsi səsə qoyularkən bitərəf qaldı. Rusiyanı dəstəkləyən Türkiyə və Azərbaycan nümayəndə heyətinin davranışı fonunda bu, xüsusilə gözə çarpdı. Erməni rəsmiləri və ekspertləri çox ehtiyatlı tərzdə bunu ölkə nümayəndələrinin müstəqil seçimi, bir sıra erməni mətbuatı isə sadəcə siyasi müstəqilliyin uğursuz imitasiyası olduğunu bildirdilər. Belə bir imitasiyanın uğursuzluğu bir sıra digər amillərlə yanaşı, yanvar ayında Gümrüdə baş verən kütləvi qətl hadisəsindən sonra indiyədək davam edən "Permyakov qalmaqalının'' fonunda daha qabarıq ifadə olunur.

Son aylarda cəbhə bölgəsindəki qoşunların təmas xəttində uğursuzluqlara düçar olan Ermənistan tam ümidsiz vəziyyətdədir.Yanvarın 30-da Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Nikolay Bordüja aşağıdakıları bəyan edib: ''**Siz bizdən silahlı reaksiya gözləyirsinizmi? Yox, bu, mümkün deyil və KTMT-nin Nizamnaməsinə ziddir. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olur. Həmsədr ölkələr münaqişənin sülh yolu ilə həlli məsələsi üzərində çalışırlar**''.

Lakin, Rusiya-Ermənistan münasibətlərinin mövcud yeni geosiyasi reallıqlar fonunda kritik həddə olması və bu münasibətlərin daha da kəskinləşməsi yaxın gələcəkdə Ermənistanın siyasi imitasiyalardan, şantajdan daha uzağa gedəcəyini deməyə əsas vermir. Əslində "sahib-vassal'' münasibətini ifadə edən "ənənəvi Ermənistan-Rusiya münasibətləri'' Ermənistan üçün məlum səbəblərdən dərin bir uçuruma çevrilib və bundan qurtulmaq üçün rəsmi İrəvanda nə siyasi iradə, nə də praqmatik və konstruktiv mövqe nümayişi tendensiyası hələ ki, hiss olunmur.

***Bədəl Əhmədov,***
***sosiologiya üzrə fəlsəfə doktoru***
***Newtimes.az***

# “Milli Şura”nın mitinqi baş tutmayacaq

## *Elçin Mirzəbəyli: “Əli Kərimli mitinqlər planlaşdırmaqla son vaxtlar AXCP-dən olan istefaları unutdurmağa çalışır”*




***Dağıdıcı müxalifət hər zaman məsuliyyətsiz bəyanatları, qeyri-ciddi açıqlamaları ilə diqqət mərkəzinə çevrilməyə çalışıb. Amma bütün hallarda cəmiyyət müxalifətin irəli sürdüyü ideyaları, səsləndirdiyi təklifləri qətiyyətlə rədd edib. Buna baxmayaraq xarici qüvvələrdən asılı vəziyyətdə olan məkrli qüvvələr öz səhv siyasətlərindən əl çəkmirlər. Əksinə, piketlər və mitinqlər keçirəcəkləri iddiası ilə çıxış edirlər. “Milli Şura”nın martın 15-də mitinq keçirtmək istəyi ilə hay-küy salması da müxalifətin diqqət mərkəzinə çevrilmək üçün göstərdiyi növbəti uğursuz cəhdlərdəndir.***

Məsələyə münasibət bildirən BAXCP-nin sədr müavini Elçin Mirzəbəyli qəzetimizə açıqlamasında bildirdi ki, “Milli Şura” adlanan qurum Azərbaycanla bağlı mühüm hadisələr ərəfəsi ölkəmizin əleyhinə təxribat xarakterli addımlar atırlar: “Çünki onlar bilirlər ki, Azərbaycan kifayət qədər önəmli bir tədbirə - Avropa Oyunlarına hazırlaşır. Dünyanın bütün diqqəti Azərbaycana yönəlib. Deməli olar ki, 2011-ci ildə “Eurovision” Mahnı Müsabiqəsi ölkəmizdə keçiriləndə də müxalifəti təmsil edən şəxslər tərəfindən eyni addımlar atılıb. Bir sözlə, oxşar proseslər davam edir. Azərbaycana zidd fəaliyyət göstərən və erməni diasporu tərəfindən istiqamətləndirilən müxalifət fəallaşıb. Bununla da “Milli Şura”nın məkrli qüvvələr tərəfindən idarə olunduğu sübuta yetirilir. “Milli Şura”nın mitinqinin hər hansı bir effekt verəcəyini gözləmirəm. Yenə də 3-5 nəfərdən başqa heç kəs mini-mitinqə qatılmayacaq. Digər bir amil isə “Milli Şura” adlanan bu qurumun əsas aparıcı şəxsi idiası ilə çıxış edən və ətrafında olan 2-3 nəfərin də onu tərk etməsi Əli Kərimlinin iflas dövrünü yaşamasıdır. Ə.Kərimli mitinqlər planlaşdırmaqla son vaxtlar AXCP-dən olan istefaları unutdurmağa çalışır. Bildiyiniz kimi, həm Əli Kərimlinin müavini Razi Nurullayev, həm də müşaviri olan Zərifə Məhəddinova Ə.Kərimlinin ünvanına çox sərt ittihamlar səsləndirmişlər. Normal bir siyasi partiya rəhbəri olsa idi, bu ittihamlardan sonra, ümumiyyətlə, Azərbaycan siyasətini tərk edərdi. Amma Ə.Kərimli istefa vermədi. Çünki Ə.Kərimli siyasətə gəlir mənbəyi kimi baxır. Siyasətdən getsə, imkanlardan məhrum olunar”.

E.Mirzəbəyli “Milli Şura”nın planlaşdırdığı bu aksiyaya hər hansı bir ictimai dəstəyin olmayacağını bildirdi: “Hətta həmin o qrupa daxil olan həmin qüvvələr də onlarla birlikdə olmaq istəmirlər. Vaxtilə Əli Kərimlinin yanında olan şəxslərin səsləndirdiyi fikirlər və radikal qurumların fəaliyyətinin ancaq sosial şəbəkələrdə olduğu barədə söyləntilər yaranmış real situasiyanı, mənzərəni ortaya çıxarır. Bu baxımdan da, müxalifətə ictimai dəstəyin olması mümkün deyil”.

**GÜLYANƏ**

# AXCP və “Milli Şura” ittiham hədəfində

## *Müxalifət liderləri bu təşkilatları real müxalifət qurumları hesab etmirlər*



Məlum olduğu kimi, bu günlərdə 15-ə qədər siyasi partiyanın iştirak etdiyi iqtidar-müxalifət dialoqundan sonra həmin tədbirdə iştirak etməyən Müsavatla AXCP yenə də böhtanlı çıxışlarını davam etdirməyə başlayıblar. Bu da təəccüb doğurmur. Çünki siyasi dialoq məsələsilə hər zaman manipulyasiya edən radikal müxalifət hakimiyyətə qarşı süni şəkildə dəfələrlə təzyiq atmosferi yaratmağa cəhdlər göstərib. Amma baş tutan dialoq bir daha göstərir ki, Azərbaycanda hakimiyyət nəinki iqtidar-müxalifət dialoquna qarşı çıxır, hətta ölkədə fəaliyyət göstərən bütün partiyalarla siyasi dialoqa hazır olduğunu açıq şəkildə nümayiş etdirdi. Lakin radikal müxalifətin siyasi dialoqdan yayınması onların əsl simasını ortaya qoydu və hər zaman olduğu kimi bəzi müxalifət partiyaları ənənəvi mövqelərindən çıxış edərək səs-küy salmağa başladılar. AXCP idarə etdiyi mətbuat qurumunu işə salaraq keçirilən görüşü “şou” adlandırsalar da, bir çox müxalifət partiyaları bu görüşü hakimiyyətlə müxalifət arasında münasibətlərin inkişafı və ümummilli məsələlərin müzakirəsi baxımından təqdirəlayiq proses hesab edirlər. Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov hesab edir ki, məqsədində milli maraqlar, dövlətçilik, xalqın mənafeyi olan siyasi partiyalar bu dialoqu təqdirəlayiq hesab etməlidir: **“AXCP və Müsavatın bu mövqeyi təbii qarşılanmalıdır. Çünki iqtidar-müxalifət dialoqunun olması onların istəklərinə cavab vermir. Bununla da bir daha təsdiq olundu ki, bu partiyalar üçün korporativ maraqlar hər şeydən üstündür. Bir də əməlində, xislətində xəyanət, satqınçılıq, öz şəxsi marağını dövlət, xalq marağından üstün tutmaq varsa, təbii ki, onların nə edəcəyi əvvəlcədən bəllidir”.**

S.Novruzov onu da vurğulayıb ki, artıq AXCP, Müsavat kimi qurumların rəhbərliyində təmsil olunanlar hər hansı müstəqil qərar qəbul etmək iqtidarında deyillər: “Çünki bunların ipləri ayrı-ayrı xarici qurumların, ayrı-ayrı təşkilatların əlindədir və onlar bu ipi dartdıqca, bunlar həmin təşkilatların istəklərinə uyğun olan bəyanatlar verirlər. Əgər o təşkilatlar bunların bu dialoqda iştirak etməsi ilə bağlı qərar verməyiblərsə, deməli, iştirak etməyəcəklər. Əgər onlar tapşırıq versələr ki, get sabah tezdən birinci sən otur orada, hamıdan qabaq qaça-qaça gələcəklər. Bir sözlə, radikal müxalifətin siyasi dialoqdan yayınması onların əsl mahiyyətini ortaya qoyur”.

Milli Dirçəliş Hərəkatı Partiyasının (MDHP) sədri, millət vəkili Fərəc Quliyev “SƏS” qəzetinə verdiyi açıqlamasında bildirib ki, görüşün məqsədi ümummilli məsələlərdə iştirakı vacib olan şəxslərin, qurumların fəaliyyətini tənzimləməkdən ibarətdir: **“Danışıqları qeyri-ciddi hesab edən, ona qara yaxmağa çalışan partiyaların, ümumiyyətlə, bu məsələlərə münasibət bildirməyə haqları yoxdur. Kim ki bu dialoqdan kənarda qaldı, onlar da bu görüşlərə qara yaxmağa çalışırlar. Bu dialoqda iştirak edən partiyalar kifayət qədər sanballı partiyalardır və hesab edirəm ki, müzakirələrimiz bundan sonra da uğurlu olacaq”.**

KXCP sədri Mirmahmud Mirəlioğlu isə “Milli Şura”nın keçirilən görüşü dialoq yox, “şou” adlandırmasına münasibət bildirərəkən deyib ki, bu qurumun mülacəyə ehtiyacı var: “Olmayan şeyləri danışmaq ayıbdır. Mən, sadəcə olaraq, təəssüf edirəm. Mən bunu mediaya açıqlamaq istəmirdim, amma deməyə məcbur elədilər. Bu cür görüşlərin keçirilməsinin Azərbaycan cəmiyyətinə xeyri var. Tənqid edən dostlar da unutmasınlar ki, ən çox da xeyri onlara var. Hesab edirik ki, bu görüşlərin səmərəsi də, nəticəsi də hər kəsə olacaq. Mənim buna böyük inamım var. Amma olmaya da bilər, bu da faciə deyil. Tənqid edirlər etsinlər, amma insaflı olmaq lazımdır, insafı, ədaləti kənara qoymaq olmaz”.

Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyev qeyd edib ki, dialoq Azərbaycanda iqtidar-müxalifət münasibətlərinin yeni mərhələsinin başlanğıcıdır: “Son illər ərzində ilk dəfədir ki, Azərbaycanda vasitəçilərsiz, yalnız ölkədaxili qüvvələrin siyasi iradəsi ilə dəyirmi masa keçirilir. Həm iqtidar, həm də müxalifət bu prosesi faydalı hesab edir. Əgər tərəflər bundan sonra da iradə nümayiş etdirəcəklərsə, yaxın gələcəkdə Azərbaycanda keyfiyyət və mahiyyətcə yeni mərhələnin başlanmasının şahidi olacağıq. Bu, bütövlükdə ölkəyə, dövlətçiliyə, dialoqun tərəflərinə lazımdır. Ona görə də iqtidar-müxalifət dialoqunun davamlı olmasının, ölkədə yeni münasibətlər sisteminin formalaşmasının və Azərbaycanda bütün siyasi sistemin inkişafının tərəfdarıyam. O ki qaldı ayrı-ayrı subyektlərin bu görüşlər barədə subyektiv fikirlərinə, fikrimcə, özünütəcrid siyasəti düzgün yol deyil. Bu söhbətdən qaçan qüvvələr yalnız özünə arxayın olmayan, “bulanıq suda balıq tutmaq” istəyən qüvvələrdir. Görünür, həmin qüvvələr Azərbaycanda siyasi proseslərin şəffaf, açıq şəkildə getməsində maraqlı deyillər”.

Ə.Əliyev AXCP funksionerlərinin “Milli Şura”dan kənar müxalifətin olmaması iddialarına da münasibət bildirib: “Unutmasınlar ki, “Milli Şura” Azərbaycanda Moskva layihəsi kimi meydana çıxıb, Rusiyanın ölkəmizə təzyiq vasitəsi funksiyasını yerinə yetirib. Əməyini başqa dövlətin maraqlarına xidmət etmək üçün təklif edən, alət rolunu oynamağa hazır olan siyasi qüvvənin ölkə maraqlarını güdməməsi təbii prosesdir”.

ADP sədri Sərdar Cəlaloğlu isə “Milli Şura”nın müxalifətçiliyini İŞİD-lə, Ukraynada döyüşən üsyançılarla müqayisə edib: “İŞİD də özünü Suriyada hakimiyyətə qarşı əsas müxalifət elan etmişdi. Ukraynada mərkəzi hakimiyyətə tabesizlik nümayiş etdirib silahlı mübarizə aparanlar da özlərini müxalifət hesab edir. İndi gəlin görək, İŞİD-in müxalifliyi Suriya dövlətinə və xalqına xeyir gətirdi?! “Milli Şura”nın və AXCP-nin müxalifət olmağı indiyə qədər bu xalqa nə verib?! Bir müsbət nə isə verib?! Sən müxalifət ola bilərsən, ancaq sənin müxalifətçiliyin indiyə qədər bu ölkədə cüzi də olsa dəyişikliyə nail ola bilməyibsə, belə müxalifətçilik heç kimə lazım olmayan zərərli müxalifətçilikdir. 20 ildir sən Azərbaycan müxalifətinin önündə getdiyini bəyan edirsən, 20 ildir ki, Azərbaycan müxalifəti uduza-uduza gedir. Sənin müxalifətçiliyin budursa, kimə lazımdır belə müxalifətçilik!? Bu xalq səni 20 ildir görür, alovlu taftalogiyadan ibarət nitq söyləmək xalqa xidmət etmək deyil”.

Beləliklə də, bu gün Azərbaycanın siyasi səhnəsində şou göstərən, siyasətlə məşğul olmayan, başqaları tərəfindən düzənlənmiş ssenari əsasında tamaşa oynayan bir şəxs və ya şəxslər varsa, o da Əli Kərimli və onun ətrafında olan insanlardır.

***Rəfiqə HÜSEYNOVA***



**SAMİR**

# “Amnesty İnternationalı” tanıyırıqmı?

1960-cı ildə yaradılan “Amnesty İnternational” təşkilatı 1991-ci ilə qədər tamamilə tam fərqli bir formada fəaliyyət göstərib. Daha dəqiq desək, bu təşkilat ABŞ-ın, Qərbin SSRİ-də həyata keçirdiyi bir çox kəşfiyyat oyunlarının ideoloji mərkəzi olub. Xüsusilə də, Rusiya dövlət adamlarını “qadın toruna” salmaq, sənət adamları adı altında SSRİ-də casuslar şəbəkəsi yaratmaq bu qurumun əsas məqsədi idi. XX əsrin 60-70-ci illəri bu baxımdan SSRİ tarixinin ən ziddiyyətli dövrlərini təşkil edir. 1964-cü ildə Brejnevin Baş katibliyi ilə başlayan yeni mərhələ həmin dövrdə ABŞ məxfi sənədlərində “gözəl moldovalı” dövrü kimi dəyərləndirildi. Söhbət Brejnevdən gedir. ABŞ dünyanın ən gözəl qadınlarını SSRİ rəhbərlərinin qucağına atmağa çalışırdı, özlərinin qadın agentləri vasitəsilə bütün sirlərə agah olmağa çalışırdılar. Hətta SSRİ rəhbərlərinin qızları ilə də “sevgi” münasibəti qurmaq üçün ABŞ ən yaraşıqlı, plastik əməliyyatlar keçirmiş kişiləri ora göndərirdilər.

SSRİ dağıldıqdan sonra dünyanın dəyişməkdə olan düzəninə uyğun olaraq bu təşkilat da “hüquq” donu geyinməyə başladı və guya insanların hüquq və azadlıqlarının “müdafiəçisi” kimi çıxış edəcəkdi. 90-cı illərdən etibarən bu qurum daha çox “yenilənmə” dövrü yaşadı və XXI əsrin əvvəllərində aktiv fəaliyyətə başladı. Əslində məqsəd yerində qalır, sadəcə metod və üsullar dəyişdirilib. Eyni coğrafi areal... Keçmiş sovet ölkələrində insan hüquq və azadlıqları ilə bağlı baş verə biləcək bütün hadisələrə bu təşkilat münasibət göstərir. Əslində isə beynəlxalq qurum olmasına baxmayaraq, biz “Amnesty İnternational”ın Azərbaycan da daxil olmaqla 3-4 ölkədən başqa dünyanın heç bir ölkəsindəki insan hüquq və azadlıqları ilə bağlı hesabatlar açıqlamadığının şahidi olmuruq. Əslində, mətləb aydındır.

Lakin ortada ən qərəzli məsələlərdən biri odur ki, bu təşkilat Azərbaycanda keçiriləcək Olimpiya Oyunlarını boykot etməyə çağırır. Şübhəsiz ki, nəyi əldə etməyə çalışırsa, ona görə də belə qərəzli çağırış ortaya qoyur. Lakin biz “it hürər, karvan keçər” misalını illərdir ki, sınayırıq və yolumuza davam edirik. Bundan sonra da elə olacaq. Olimpiya Oyunları da bitəcək, başqa oyunlar da ancaq, ABŞ-ın, Qərbin belə saxta oyunları bitməyəcək ki, bitməyəcək.

# Hüquqi dövlət və dəyər atributları

Məlum olduğu kimi, ABŞ-da, siyasi həyatı fırlanmağa məcbur edən dəyər atributlarını ictimai (sosial) səhnəyə gətirən, məhz bu mənəvi cəhətdən təsdiqlənmiş fərdi subyektdir (müasir fərddir). Beləliklə, öz-özlüyündə, sosial və ya ictimai məkan, orada başqa yerlərdəkindən daha çox özünüidarə dəyərindən (və mən özünüidarə elementini xüsusi vurğulayıram) məhrum olunub. Bu, ictimai məkanın dəyərinin yoxluğu deyil, onun məhz özünüidarə dəyərinin yoxluğu deməkdir. İctimai məkan üçün yığılmış dəyər ictimai mühitdə fəaliyyət göstərən və bir-biri ilə qarşılıqlı təmasda olan sosial iştirakçılara (mənəvi cəhətdən özünü idarə edə bilən fərdlərə) verilmiş ümumbəşəri dəyərin bir funksiyasıdır. Başqa yerlərlə müqayisədə, Amerika hər biri "ontoloji" cəhətdən təmkinli, "metafiziki bərabərlik" vəziyyətində mövcud olan və yalnız rasional mübadilənin məntiqi ilə birləşmiş mütləq subyektlərin icması kimi səciyyələnir.

A.Seliqman yazır: "Mən anlayıram ki, bu, son dərəcə mübahisəli bir fikirdir və onu inkar etmək məqsədi ilə oxucu dərhal abortla bağlı mübahisələr barədə düşünəcək. Bununla belə, abortla bağlı mübahisələr, əslində, ictimai dəyərlərin yeri kimi təmsilçilik statusuna nail olmuş özəl mühitin ən əsas nümunəsidir. Üstəlik, vətəndaş cəmiyyəti ideyası və müasir liberal-fərdçilik cəmiyyətinin təsisatı ilkin şərtləri arasındakı müasir ziddiyyəti məhz abort məsələsində görə bilərik. Təəccüblü deyil ki, məhz həyat tərəfdarı olan fəallar abortla bağlı tənqidi çıxışlarında vətəndaş cəmiyyəti ideyasına oxşar bir şey təqdim edirlər. Beləliklə, həyat tərəfdarı olan fəalların münasibətləri və qaldırdıqları problemlərlə bağlı azsaylı araşdırmaların birində, antropoloq Fey Qinsburqun araşdırmasında, bu üç mövzu üstünlük təşkil edir:

1. Kişilər üçün təbii, qadınlar üçünsə qeyri-təbii kimi hesab olunan "məsuliyyətsiz seksual davranışa" müqavimət;
2. Müəyyən şikəstliyə, bədbəxtliyə və ya qocalığa görə özləri sərbəst hərəkət edə bilməyən və məhsuldar əməklə məşğul ola bilməyən... İnsanların sosial və mədəni baxımdan dəyərsizləşməsi barədə narahatlıq;
3. İnsanlararası münasibətlərdə getdikcə təhlükəli meyillər kimi görünən və mütləq dəyişdirilməli olan, habelə "qohumluq və icmanın bəhrələndirici əlaqələrinin yerini tutan" bazar rasionallığı və vasitəçiliyinin tənqidi".

Buradan görürük ki, onların mövqeləri belə səciyyələndirilə bilər: (1) fərdin mənəvi bütövlüyünü qorumaq cəhdi kimi (tamamilə fərqli baxımdan prinsipial mövqe kimi dərk olunsa da, seçim tərəfdarı olan fəalların mövqeyinə son dərəcə oxşar olan) və (2) vətəndaş cəmiyyətinin klassik ənənəsindən heç də o qədər fərqlənməyən, qarşılıqlıq və icma məsuliyyəti modelini açıqlamaq cəhdi. Bu sonuncu mövqe fərdi "hüquqların" mövqeyini icma mühitini təsdiqləyən qarşılıqlıqdan kənarlaşdırılmış tərzdə bəyan edən seçim tərəfdarı olan fəalların mövqeyinə hiss olunacaq ziddiyyətdədir.

Bu iki düşərgə arasındakı münaqişədə bizim (mənəvi və iqtisadi cəhətdən özünü idarə edən və "hüquqlara" malik fərdə əsaslanmış) liberal-fərdçilik cəmiyyətinin ilkin şərtlərinin vətəndaş cəmiyyəti ideyası ilə əhatə olunmuş qarşılıqlığın ilkin şərtlərilə necə münaqişədə durmasını göstərən bir ən əsas misalımız var. Bizim, bir-biri ilə rəqabət aparan mənəvi iddiaları kompromisə getmək şansı vermədən barışmaz münaqişəyə çevirən, şəxsi mühitin ictimai və etik aura ilə necə əhatə olunduğunu göstərən bir başqa misalımız da var. Con Qrey bu yaxınlarda yazırdı: "Abortla bağlı məsələyə, bir-biri ilə rəqabət aparan maraqlar və ideallar arasında tarazlığın əldə oluna biləcəyi qanunvericilik deyil... konstitusiya hüquqlarının tətbiqilə bağlı məsələ kimi yanaşmaqla, Amerikan yurisprudensiyasının aparıcı təsisatları onu elə vəziyyətə salıb ki, onun haqqında heç bir kompromis əldə oluna bilmədiyi üçün bu məsələnin həlli maraqlı tərəfləri qane edə bilməz. Bununla onlar, ABŞ-a imkan vermir ki, o, təkcə Yeni Zellandiya və Birləşmiş Krallıq kimi ingilisdilli ölkələrdə deyil, əsasən katoliklərdən ibarət Fransa və İtaliya kimi ölkələrdə də abortla bağlı məsələnin əldə olunmuş dinc həll yolundan istifadə etsin".

Əslində, məsələnin məğzi də bundadır. Çünki (köməkçi vasitəçiliyə və beləliklə də maraqların təmsil olunduğu idarəçilik sferasının səlahiyyətinə, yəni qanunvericiliyə verilmiş) maraqlar baxımından deyil, lakin ictimai-mənəvi prinsip (və beləliklə də qərarların, ABŞ-da "mənəvi səlahiyyəti", cəmiyyətin Durkhaymın müəyyənləşdirdiyi, öncədən bağlanmış müqavilə və müqəddəs prinsiplərin keşikçiləri, yəni Ali Məhkəməni təmsil edən təsisatçı sferanın daxilində qəbul olunduğu) baxımından nəzərdən keçirilən sfera məhz şəxsi sferadır. Belə olan halda, abortla bağlı məsələ, ictimai səhnənin özünüidarə dəyərindən məhrum olmadığını deyil, yalnız onu əvəz edən şəxsi sferanın heç də həmişə adi olmadığını sübut edir. Şəxsi amil davamlı olaraq ictimai mühitə proyeksiya edib, onunla birləşdikcə, şəxsi sferanın çox vaxt adi şeylərə çevrilməsinə tez-tez rast gəlinir və onun barəsində biz ayrıca danışacağıq.

Başqa yerlərlə müqayisədə, ABŞ-da, biz Veberin elə bir "dəmir qəfəsində" yaşayırıq ki, bir vaxtlar orada mənəvi səlahiyyətin yeri olmuş müqəddəslər icmasının dağılması nəticəsində başqaları ilə bölüşülən, ictimai mənadan məhrum edilmiş fərdi maraqların ardınca qaçan fərdlər kimi tənha qalmışıq. Veberin sözləri ilə desək: "Çağırışın icrasının ən yüksək ruhi və mədəni dəyərlərlə birbaşa əlaqələndirilmədiyi yerlərdə və ya digər tərəfdən, onun sadəcə iqtisadi məcburiyyət kimi hiss olunmasına ehtiyac olmayan hallarda, fərd adətən onu əsaslandırmaq cəhdindən tamamilə əl çəkir. Özünün ən yüksək inkişaf sahəsi olan ABŞ-da dini və etik mənadan məhrum edilmiş var-dövlət dalınca qaçmaq həvəsi sırf dünyəvi ehtiraslarla eyniləşdirilir ki, bu da ona, əslində, çox vaxt idman xarakteri verir".

Veberin "dəmir qəfəsi" sadəcə iqtisadi məcburiyyətin libası deyil, onun mülki və ya vətəndaşlıq nəticəsidir, yəni artıq marağın "Humsayağı" hesablamasından, bölüşülən etik məkandan fərqli şərtlər baxımından tərtib oluna bilməyən maraqla motivləşən bu fərdlərin arasındakı münasibətlərin libasıdır. Bu mənada, Con Dann yaxşı demişdi ki: "...müasir ABŞ-ın dünyəvi baxışlı "Lokksayağı" liberalları kalvinizmin bərabərlik vədinin sələfləri ilə müqayisədə düşündüklərinə nisbətən daha çox qapalıdırlar. Əgər çağırışın dini məqsədi və göstərişləri Lokkun nəzəriyyəsindən kənarlaşdırılmış olsaydı, onda həm fərdi insani həyatın və sosial həyatın məqsədi, hər ikisi, faydalanmanın son dərəcə artırılması məqsədilə müəyyənləşərdi".




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti çərçivəsində hazırlanıb*

Beləlikdə, bu, Veberin "dəmir qətəsinin" digər tərəfidir. Çünki yalnız hər bir fərdin özü ümumbəşəri şərtlər baxımından müəyyənləşdiyi zaman, onlar arasındakı münasibət utilitar və maraqla motivləşən olur, bölüşülən etik məkanda əsasını itirir. Asket-protestantlar arasında fərdi vicdanın etik təsdiqlənməsi ilə başlamış bu proses sonda fərdlər arasındakı (ictimai) məkanı hər hansı özünüidarə dəyərindən məhrum etdi. Bu fərdlər arasındakı bir-birini qarşılıqlı tədricetmə, fərdlərin əhatəli bir quruluş daxilində mövcud olmasını görməsinə baxmayaraq, Veberin məhz ABŞ-da mövcud olan sosial qruplar arasında rast gəldiyi şeydir. Bəlkə də buna görə təəccüblü deyil ki, başqa yerlərdən fərqli olaraq, Amerika posmodernist arqumentə daha çox həssas olub. Burada başqa yerlərlə müqayisədə, sosial mövcudluğun fundamental ilkin şərtləri daha çox məxsusi amilin apofeozunun ilkin şərtləridir.

Məxsusi və ya ictimai sferanın sosial bütövlüyü təmsil edə biləcək bir status səviyyəsinə qalxması, ictimai sferanın aspektlərindən hər hansı birinin elə itkisidir ki, orada fərdçilik etik həmrəyliyin bir komponenti kimi təşkil olunur. "Ümumbəşəri" subyekt, daxilində cəmiyyət və onun təşkiledici münasibətlərinin təqdim olunduğu, dəyərsizləşmiş ictimai sferanın yeganə tərəf- müqabilidir. Bu fenomen və ya daha dəqiq desək, onun aspektlərindən birini 150 il əvvəl Tokvill müşahidə etmişdi. Daxilində tənqidi idrakın öz təsirini göstərə biləcəyi bölüşülən bir ictimai məkanın yoxluğu, Amerikan həyat tərzinin ən təhlükəli aspektlərindən biri kimi Tokvilli pərt eləmişdi. O, qeyd edir: "**Nəzərə çarpan ilk şey, çoxlu sayda bərabərhüquqlu və bir-birinə oxşar, həyatlarını xırda və mənasız şeylərdən həzz almaqla doldurmağa gecə-gündüz səy göstərən insanların olmasıdır. Onlardan hər biri, ayrı yaşayaraq, yerdə qalanların taleyinə biganədir. Bütün bəşəriyyət onun anlamında yalnız ailə üzvlərindən və özəl dostlarından ibarətdir. Onun yerdə qalan həmvətənlərinə gəldikdə, o, onlara yaxın olsa da, onları görmür; onlara toxunsa da, onları hiss etmir. O, yalnız özündə və özü üçün mövcuddur. Əgər o, hələ də öz qohumlarına bağlılıqla yaşayırsa, onda demək olar ki, o öz vətənini itirib**".

Bu, şişirdilmiş özəllik və bölüşülən ictimai həyatın müvafiq itkisinin nəticəsi odur ki, ömrün yaşanmış hər günü insanın azad vasitəçiliyindən istifadəni daha az faydalı və daha az rast gələnən edir; o, istəyi daha dar çərçivəyə salır və tədricən insanın özünə edə biləcəyi bütün faydalardan məhrum edir: "**Müəllif üçün qeyd edilməli mühüm amil "insanları bu şeylərə hazırlamış olan, insanları onlara dözməyə və çox zaman onlara faydalar kimi baxmağa meyil etdirmiş bərabərlik prinsipidir". Belə bir vəziyyətin yekun nəticəsi budur: "Müasir cəmiyyətdə hər şey o dərəcədə bir-birinə oxşarlaşmaq təhlükəsi ilə qarşılaşır ki, elə bil hər bir fərdin məxsusi xüsusiyyətləri tezliklə dünyanın ümumi aspektində tamamilə itəcək**".

A.Seliqman göstərir ki, bütün müasir cəmiyyətlərin prototipi olan Amerikada, biz vətəndaşların bərabərliyi ilə köməkçi səbəbdən qidalanan bərabərliyin məntiqi arasındakı, özünün asılı olduğu həmin ictimai və etik məkanı məhz öz tərəqqisi ilə zəiflədən, təfərrüatlarını öncə izlədiyimiz münaqişəni aydın görürük.

Cəmiyyətin öz təşkiledici üzvləri üçün və onlar arasında necə təmsil olunmaq məsələsi şəxsi və ictimai amillərin bir-birindən çox fərqli mühitlərinin düzgün dərk olunmasından asılıdır. Onların hər ikisi arasındakı münasibətləri postulat kimi irəli sürərkən, klassik modernist siyasi nəzəriyyəsi idrak və vətəndaşların bərabərliyinin birləşdirici kateqoriyalarına təsis olunmuş, öz ilkin şərtlərinin ziddiyyətli tələbləri arasında ilişib qaldı. Bərabərliyin ilkin şərtlərinin ümumbəşəriləşdirilməsi işində atılan hər bir addım idrakın artan reallaşmasını nəzərdə tuturdu. Bununla belə o öz-özlüyündə ictimai sferanın təmsilçilik əlamətlərinin itkisinə gətirib çıxardı. Tokvill üçün bu, Amerikanın səciyyəvi məntiqi idi. Bərabərlik artdıqca, ictimai sfera insan istəyinin reallaşdığı səhnə kimi əhəmiyyətini itirir. Kant üçün həm praktik idrakın, həm də bərabərlik və azadlığın davamlı təsirləri üçün vacib olan ictimai sfera məhz bərabərliyin reallaşması nəticəsində dəyərsizləşmişdi.

Liberal humanizmə radikal feminist və lezbian hücum bu vaxtadək özəl hesab olunan məsələlərin məhz ictimai problemlərə proyeksiya olunmasını göstərir. Maraqlısı odur ki, bu cür siyasəti və eyni zamanda qadınların ayrılması mövqeyini dəstəkləyən ən hay-küyçü tərəfdarlara da məhz ABŞ-da rast gəlmək mümkündür.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

## Hindistanda fil qəzəbləndi, 4 nəfəri öldürdü



Vəhşi fil Hindistanın Bihar ştatındakı kəndlərdən birinin sakinlərinə hücum edib, 4 nəfər ölüb. Bu barədə Trend xarici mətbuata istinadən xəbər verir. Hadisə bu gün baş verib. Filin hücumu nəticəsində iki nəfər ölüb, daha üç nəfər isə xəsarət alıb. Yerli polis nümayəndəsinin sözlərinə görə, filin hücumu nəticəsində yaralananlardan ikisi xəstəxanada dünyasını dəyişib. Yerli hakimiyyət orqanlarından verilən məlumata əsasən, qəzəblənmiş heyvanı tutmaq hələ mümkün olmayıb. Heyvanın tutulması üçün əlavə qüvvələr cəlb edilib.

## 3 yaşlı uşaq yaşyarımlıq qardaşını güllələdi



ABŞ-da 3 yaşlı uşaq yaşyarımlıq qardaşına tapançadan atəş açıb. Trend-in xarici mətbuata istinadən verdiyi məlumata görə, faciəvi hadisə Hillsboro şəhərində baş verib. Zərərçəkmiş uşaq xəstəxanaya çatdırılıb. Polislər uşağın 6,35 mm kalibrli avtomat tapançadan atəş açdığını bildiriblər. Uşağın silahı haradan tapdığı hələ məlum deyil.

## ELAN

ADPU-nin "Riyaziyyat və informatika" fakültəsinin IV kurs tələbəsi Məmmədli Pərvanə Həsənağa qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

ADPU-nin "Mühəndis pedaqoji" fakültəsinin IV kurs tələbəsi Abdullayeva Şölənin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.




## Azərbaycan gimnastları qızıl medala sahib çıxdılar



Azərbaycan gimnastları Oleq Stepko və Kristina Pravdina dünən Bakıda keçirilən gimnastika növləri üzrə birgə açıq Azərbaycan çempionatında çoxnövçülükdə qızıl medal qazanıblar. Trend-in məlumatına görə, çoxnövçülükdə bütün rotasiyalardan sonra kişilər arasında Azərbaycan nümayəndəsi O.Stepko 90,600 balla qızıl medal qazanıb. İkinci yerə 88,050 balla digər Azərbaycan təmsilçisi Pyotr Paxnyuk layiq görülüb. London Olimpiya Oyunlarının mükafatçısı xorvatiyalı Filip Ude isə 86,100 balla bürünc medal qazanıb. Qadınlar arasında çoxnövçülükdə proqramın bütün növlərinin nəticələri üzrə Azərbaycan idmançısı K.Pravdina 50,339 balla birinci olub. Türkiyəli Tutya Yılmaz 50,131 balla gümüş medal qazanıb. Türkiyənin daha bir təmsilçisi Demet Mutlu isə 49,332 bal toplayaraq üçüncülüklə kifayətlənib.

## "Azərbaycanda gimnastların I Avropa Oyunlarında uğurlu çıxışı üçün bütün zəruri şərait var"



Azərbaycanda gimnastların I Avropa Oyunlarında uğurlu çıxışı üçün bütün zəruri şərait yaradılıb. Bunu Trend-ə Bakıda keçirilən gimnastika növləri üzrə birgə açıq Azərbaycan çempionatında çoxnövçülükdə qızıl medal qazanmış gimnastımız Oleq Stepko deyib.Onun sözlərinə görə, çempionata hazırlıq əvvəlcədən başlayıb: "Mən çıxış proqramımı mürəkkəbləşdirdim və demək olar ki, tamamilə yeni proqramı icra etdim. Çempionata tez və böyük yüklənmə şəraitində hazırlaşmağa məcbur oldum. Belə nəticə əldə etmək üçün belə yüklənmələri artırmalı oldum". O.Stepko qeyd edib ki, Azərbaycana çempionatda iştirak etmək üçün bir çox məşhur idmançı gəlib: "Hazırda idman gimnastikasında yeni nəsil yetişir. Rəqabət də artır. İdmançılarımız çalışdılar. Onlara afərin. Lakin yekunda daha güclü oldum. Proqramın digər növlərində də medallar uğrunda mübarizə aparacağam. Fikrimcə, çoxnövçülüyün yekunlarına əsasən proqramın digər növlərində də iştirak edəcəyəm, medallar uğrunda mübarizə aparacağam". Gimnast əlavə edib ki, yekun nəticələr açıqlandıqdan sonra qalib olduğunu anlayıb: "Adətən, toplanmış balları gördükdən sonra qalib olduğunu düşünürsən, çünki hər şey baş verə bilər. Şəxsi təcrübəmdən bilirəm ki, bəzən üçüncü yerə görə sevinəndə 15 dəqiqə sonra 4-cü yerdə olursan. Heç vaxt əlləri aşağı salmaq olmaz və hətta bir dəfə yıxılmaq bizim idmanda heç nəyi həll etmir". Onun sözlərinə görə, I Avropa Oyunlarına hazırlıq başlayıb: "Oyunlara hazırlıq artıq başlayıb və cari çempionat bu Oyunlara doğru ilk addımdır. Bu çempionatdan sonra bizi gimnastika üzrə Avropa çempionatı, iki həftədən sonra isə Dünya Kuboku gözləyir. Bu, I Avropa Oyunlarına hazırlaşmaq və iştirak etmək üçün zəruri olan yarış və startların ən sıx dövrü olacaq. Üstəlik, Azərbaycanda bunun üçün bütün zəruri şərait yaradılıb".

## "... Başıma çəkiclə vurarsınız"



Pep Qvardiola baş məşqçisi olduğu "Bavariya"dan ayrılacağı ilə bağlı yayılan iddialara münasibət bildirib. Qol.Az-ın Almaniya mətbuatına istinadən verdiyi məlumata görə, o, müqaviləsinin müddəti başa çatana qədər Münhen klubunu çalışdıracağını deyib: "Heç bir klubdan təklif almamışam və hər hansı təklif də gözləmirəm. "Bavariya"da uzun illər çalışa bilərəm". P.Qvardiola yenidən "Barselona"da qayıdacağı ilə bağlı yayılan xəbərləri də təkzib edib: "Əgər "Barselona"ya dönsəm, başıma çəkiclə vurarsınız". Qeyd edək ki, P.Qvardiola ilə "Mançester Siti" və "Barselona"nın maraqlandığı iddia edilir.

## Xavi Amerikaya gedir

"Barselona"nın futbolçusu Xavi Hernandez mövsümün sonunda komandadan ayrılacaq. Qol.Az-ın məlumatına görə, bu barədə xəbəri "Marca" qəzeti yayıb. Təcrübəli futbolçunun Amerikaya üz tutacağı gözlənilir. İspaniya milli komandasının üzvünün ABŞ-ın "Nyu-York Siti" klubu ilə anlaşdığı bildirilir. Xavi ötən yayda komandadan ayrılmaq istəsə də, baş məşqçi Luis Enrike onun getməsinə icazə verməmişdi. Qeyd edək ki, "Nyu-York Siti"də hazırda Xavinin sabiq komanda yoldaşı David Vilya çıxış edir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız:Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi,32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500